İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi
Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)
İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

**"Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" layihəsi**

"Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyasının

"**Bölgələrin tarazlı inkişafı**" istiqaməti üzrə

# Monitorinq Hesabatı

**Rövşən Ağayev**

**Dekabr, 2016**

# MÜNDƏRİCAT


Giriş ........................................................................................................................ 3

1. "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyası: bölgə inkişafı ilə bağlı hədəflər ........................................................................................................................ 4

2. Konsepsiyasının hədəfləri ilə bağlı görülən əsas işlər: 2013-2016-cı illər ........... 5

3. Regionların sosial-iqtisadi inkişafın təmin edilməsi üçün normativ-hüquqi bazanın yaradılması ........................................................................................................ 20

4. Tədqiqatın əsas nəticələri, təklif və tövsiyyələr ..................................................... 23

Əlavə 1. Ölkənin iqtisadi rayonları üzrə adambaşına ümumi məhsul buraxılışının həcmi........................................................................................................ 26

Əlavə 2. İnzibati ərazilər üzrə adambaşına ümumi məhsul buraxılışı ................... 27

Əlavə 3. Regionlar üzrə investisiyalar, 2013-2015-ci illər ......................................... 28

Əlavə 4. Əhalinin hər nəfəri hesabı ilə regionlar üzrə investisiyaların məbləği .... 29

Əlavə 5. Adambaşına yerli gəlirlər, 2015 ..................................................................... 30

Əlavə 6. Regionların rəqabət qabiliyyətliliyini qiymətləndirmək üçün istifadə edilə biləcək indikatorlar ........................................................................................................ 31

Əlavə 7. Regional iqtisadi inkişaf siyasətinin effektivliyini və nəticəliliyini yüksəltmək üçün beynəlxalq təcrübələr ..................................................................... 33

# GİRİŞ

Regional iqtisadi inkişaf istənilən ölkədə dayanıqlı iqtisadi tərəqqinin təmin edilməsinin ən mühüm şərtlərindən biridir. Bu səbəbdən "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında tarazlı regional inkişafa nail olmağın əsas hədəflərindən biri kimi seçilməsi təsadüfi deyil. Doğrudur, Konspepsiyanın qəbuluna qədər Azərbaycan hökuməti regionların sosial-iqtisadi inkişafına dair pqroqram qəbul etmişdi. Lakin bölgə inkişafının strateji sənəddə uzunmüddətli hədəflərdən biri kimi seçilməsi bu prioritetin ölkə üçün həyati əhəmiyyət daşıdığını bir daha təsdiqləyir.

"Regional inkişaf" geniş anlayış olsa da, dünya təcrübəsində və nəzəri yanaşmalarda bu ilk öncə bölgələrarası fərqlərin azaldılmasına nail olmaq səyləri kimi qəbul olunur. Müasir inkişaf modellərində bu məqsədə nail olmaq üçün keyfiyyətli fiziki infrastrukturun formalaşdırılması yetərli sayılmır. Tarazlı bölgə inkişafı üçün regionların rəqabət qabiliyyətliliyinin təmin edilməsi və regionlarda yaşayan bütün əhalinin xidmətlərə bərabər çıxışının təmin olunması vacib şərtlər hesab olunur.

"Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında da məhz regionların tarazlı inkişafı hədəf kimi müəyyən edilib. Lakin məqsədin dəqiq müəyyən edilməsi ilə yanaşı məqsədə yönəlik fəaliyyətlərin, həmin fəaliyyətlərin reallaşdırılması üçün mexanizmlərin düzgün seçilməsi və tətbiqi də çox önəmlidir. Seçilən hədəfə nail olma səviyyəsini qiymətləndirmək, fəaliyyətdəki çatışmazlıqları vaxtında müəyyənləşdirib aradan qaldırmaq üçün tətbiq olunan mövcud regional iqtisadi siyasət və idarəetmə mexanizmləri regionların rəqabət qabiliyyətliliyinin səviyyəsini, icra olunan regional inkişaf proqramları nəticəsində bu səviyyənin və rəqabət qabiliyyətliliyinə görə regionlar arasıda fərqlərin necə dəyişdiyini qiymətləndirməyə imkan verməlidir.

Təqdim edilən hesabat çərçivəsində Konsepsiyanın qüvvədə olduğu ötən dövr ərzində regionların tarazlı inkişafı ilə bağlı müəyyən hədəflərə yetişmək atılan addımlar araşdırılıb. Xüsusilə də ölkənin bölgələrində infrastrukturun formalaşdırılması, regionlara yönəlik investisiya siyasəti, iqtisadi rayonlar arasında sosial-iqtisadi fərqlərin azaldılması, bölgələrin inkişafında yerli özünüidarənin rolunun gücləndirilməsi ilə bağlı həyata keçirilmiş tədbirlər aralıq nəticələri nəzərdən keçirilib.

Bunlardan əlavə, region ölkələrindən Türkiyə və Gürcüstanın timsalında regional iqtisadi inkişafın təmin edilməsi sahəsində təcrübələr, xüsusilə bütün maraqlı tərəflərin işturakı ilə bölgə inkişaf strategiyalarının və proqramlarının hazırlanması, regional iqtisadi inkişafa məsuliyyət daşıyan institutların fəaliyyəti ilə bağlı nümunələr araşdırılıb və qiymətləndirmə hesabatına əlavə edilib.

Qüvvədə olduğu dövrdə "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasının aralıq nəticələrinin qiymətləndirilməsinə dair rəsmi hesabataların olmadığını nəzərə alsaq, təqdim olunan təhlil Konsepsiyanın qüvvədə olduğu sonrakı dövrdə dövri olaraq nəticələrin dəyərləndirilməsi üçün baza sənədi və informasiya mənbəyi istifadə edilə bilər.

# 1. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" KONSEPSİYASI: BÖLGƏ İNKİŞAFI İLƏ BAĞLI HƏDƏFLƏR

**Konsepsiyada regionların tarazlı inkişafı ilə bağlı müəyyən edilən əsas hədəflər aşağıdakılardır:**

- *Regional inkişaf prioritetləri nəzərə alınmaqla bölgələrdə dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyalarının əlaqələndirilməsi, xərc-gəlir təhlilləri əsasında iqtisadi səmərəlilik baxımından prioritetləşdirilməs;*
- *Həyat səviyyəsinə və keyfiyyətinə, adambaşına düşən məhsul buraxılışına, investisiyaların həcminə görə fərqlər, əmtəə dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturunda kəskin fərqlərin aradan qaldırılması, ölkənin iqtisadi rayonları arasında mövcud olan fərqlərin azaldılması.*
- *Müasir yanaşma çərçivəsində iqtisadi qərarların qəbul olunmasında yerli özünüidarəetmə orqanlarının çevikliyinin artırılması.*
- *Ölkənin bölgələrində, o cümlədən kənd yaşayış məntəqələrində kommunal infrastruktur və yol təminatının yaxşılaşdırılması, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, kənd yerlərinin inkişafı istiqamətində xüsusi layihələrin həyata keçiriləməsi tədbirlərinin davam etdirilməsi, kəndlərin yol problemi daim diqqətdə saxlanılması;*
- *Turizm və rekreasiya zonalarının, iqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin, hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla yeni regional inkişaf mərkəzlərinin yaradılması;*
- *Regional inkişaf mərkəzləri vasitəsilə bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsinin stimullaşdırılması, bu yolla regional bərabərsizliyin azaldılması, iqtisadi resursların əsasən mərkəzi şəhərlərdə təmərküzləşməsinin səngidilməsi.*

## 2. KONSEPSİYASININ HƏDƏFLƏRİ İLƏ BAĞLI GÖRÜLƏN ƏSAS İŞLƏR: 2013-2016-CI İLLƏR

Ölkədə tarazlı bölgə inkişafının təmin **"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası** sənədində əsas hədəflərdən biri edilməsidir. Konsepsiyada bu hədəfə yetişmək üçün müəyyən edilən bir neçə mühüm istiqamətdə tədbirlər nəzərdə tutulub.

Konsepsiyanın qüvvədə olduğu 2013-2016-cı illərdə hər bir istiqamət üzrə atılan addımların araşdırılmasından əldə edilən əsas nəticələr aşağıdakılardır:

**1) Regional inkişaf prioritetləri nəzərə alınmaqla bölgələrdə dövlətin infrastruktur və investisiya siyasəti ilə biznesin investisiya strategiyaları əlaqələndirilməli, xərc-gəlir təhlilləri əsasında iqtisadi səmərəlilik baxımından prioritetləşdirilməlidir**.

Hökumət tərəfindən qəbul olunan bölgə inkişaf proqramlarının analizi göstərir ki, hökumətin regionların iqtisadiyyatı ilə bağlı əsas prioritet sektorlar aşağıdakılardır:

- Kənd təsərrüfatı, ilik növbədə südlük maldarlıq təsərrüfatlarının, taxılçılığın, pambıqçılığın, tütünçülüyün, quşçuluğun, ipəkçiliyin, tərəvəzçiliyin, üzümçülüyün inkişafı;
- Qida sənayesinin dəstəklənməsi;
- Tikinti məmulatları sənayesi;
- Metallurgiya sənayesinin dəstəklənməsi:
- Maşınqayırma və innovativ-texnoloji məhsulları sənayesinin dəstəklənməsi;
- Yüngül sənaye sektorunun inkişafı;
- Turizmin inkişafı.

Kənd təsərrüfatının əsas prioritetlərdən biri olması hökumətin regionlara yönəltdiyi investisiyaların strukturunda və həcmində də göstərir. Həm əkin sahələrinin meliorativ vəziyyətinin yaxşılaşdırılaması və suvarma infrastrukturunun qurulmasına, həm də aqrar sektorun texniki-texnoloji bazasının təşkilinə böyük həcmdə dövlət sərmayələri yatırılır. 2013-2016-cı illərdə təkcə dövlət büdcəsindən 665 milyon manat ayrılıb. Bu vəsaitin demək olar ki, hamısı regionlarda suvarma sistemlərinin, kanallarının, anbarlarının tikintisinə və yenidən qurulmasına sərf edilib. Əlavə olaraq, Neft Fondu vasitəsilə Samur-Abşeron kanalının qurulmasına 1.3 milyard manat sərmayə yatırılıb.

Rəsmi məlumata görə, son illər Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarlarının tikintisi, Taxtakörpü-Ceyranbatan kanalının, Sağ Sahil Şəmkirçay kanalından paylayıcı boruların çəkilməsi nəticəsində ölkənin bir neçə rayonunda – Goranboy, Göygöl, Şəmkir, Tovuz, Siyəzən, Şabran, Quba və Xızı rayonlarında 60 min hektardan artıq torpaqların suvarılması təmin edilib, 20 min hektardan artıq əkin torpaqlarının su ilə təminatı yaxşılaşıb.

Hökumətin suvarma-irriqasiya sisteminə qoyduğu investisiya biznes sektoruna 40 min hektar ərazidə 29 iri taxıl təsərrüfatı yaratmağa imkan yaradıb.

Aqrar-sənaye kompleksinin inkişı ilə bağlı hökumətin əsas sərmayələri kənd təsərrüfatının texnika ilə təminatının yaxşılaşdırılmasına sərf olunub. Bu proses bilavasitə dövlətə məxsus "Aqrolizinq" ASC vasitəsilə həyata keçirilir. Təkcə son 3 ildə - 2013-2015-ci illərdə bu müəssisə vasitəsilə aqrar sektorun texniki bazasının yaxşılaşdırılmasına dövlət büdcəsindən 185 milyon manat, ASC-nin özünün əvvəlki illərdə lizinqdə verilmiş vəsaitlər hesabına isə 67 milyon manat, ümumilikdə 252 milyon manat xərclənmişdir.

Kənd təsərrüfatı infrastrukturu ilə yanaşı regionlarda dövlət investisiyalarının yönəldiyi əsas istiqamətlərdən biri də turizm infrastrukturunun formalaşdırılmasıdır. Dövlət vəsaitləri hesabına yalnız Qusarda turizm infrastrukturunun yaradılmasına 1.3 milyard manata yaxın sərmayə qoyulub.

2013-2015-ci illərdə bölgələrdə özəl sektorun yaratdığı müəssisələr də bilavasitə hökumətin regional inkişaf proqramlarında prioritet olaraq müəyyən etdiyi və müvafiq infrastruktur yaratmaqla dəstəklədiyi iqtisadi sektorlara bağlıdır. İqtisadi İnkişaf Nazirliyinin məlumatına görə, həmin dövrdə regionlarda yaranan müəssisələrin sayı 250-dən çoxdu. Dövlət Statistika Komitəsi 2013-2015-ci illərdə regionlarda iqtisadiyyatın 6 sektoru ilə bağlı 26 yaranan müəssisələrlə bağlı aşağıdakı məlumatları paylaşıb:

Ötən 3 ildə ölkənin regionlarında yaranan müəssisələr aşağıdakılar olub:

- **Sumqayıt, İsmayıllı və Füzulidə 4 yüngül sənayə müəssisəsi.** Bura tikiş-toxuculuq müəssisələri daxildir;
- **Gədəbəy və Sumqayıtda 3 metallurgiya müəssisəsi.** Bura mis emalı, polad boruların və alüminium yarımfabrikat istehsalı müəssisələri daxildir**;**
- **Qəbələ, Sumqayıt, Abşeron, Kürdəmir, Ağcabədi, Şəmkir, Lənkəran və Naxçıvan MR-da qida sənayesi və aqrar sektorla bağlı 12 müəssisə yaradılıb.** Həmin müəssisələrə heyvandarlıq-südçülük və aqrar-sənaye kompleksləri, üzüm emalı zavodu, yağ fabriki, süd emalı məhsulları və dondurma istehsalı zavodları, meyvə emalı fabriki, yem emalı müəssisəsi və çörək istehsalı zavodları daxildir.
- **Sumqayıt, Hacıqabul və Qazaxda 3 tikinti məmulatları zavodu**. Onlara beton məmulatları, seramik plitələr və sement zavodları daxildir.
- **Abşeron və Sumqayıtda tara istehsalı ilə bağlı 3 zavod. Bura** Birdəfəlik plastik qablar və priforminqlər istehsalı müəssisəsi, polistirol və polipropilen kisələr istehsalı zavodu, kağız və karton istehsalat kombinatı daxildir.
- **Sumqayıtda texniki avadanlıqlarla bağlı 1 müəssisə.** Bu texniki avadanlıqlar zavodudur.
- **Ölkənin 7 rayon və şəhərində 12 turzim obyekti yaradılmışdır**. Bura Qubada "Rixos" oteli, Qusarda "Pik Palas," "Şahdağ" və Qusarda "Park Chalet Shahdag"

otelləri, “Şahdağ” kompleksinin 1 nömrəli kanat yolu və xizək enişi, Qəbələdə “Qafqaz Karvansaray” otel kompleksi, “Qafqaz Yengicə Termal Hotel və SPA” otel kompleksi, “Tufan” Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsi, Şəmkirdə “Excelsior Hotel” mehmanxanası, Şamaxıda “Şamaxı Palace Platinum By Rixos”, Naftalanda “Qarabağ SPA and Resort” otel kompleksi, Şabranda “Qalaaltı Hotel & SPA” müalicə-istirahət kompleksi daxildir.

Regionlarda biznesin inkişafı üçün dövlətin ən vacib investisiya istiqamətlərinə kommunal və informasiya-texnologiyaları sektorunun inkişafının dəstəklənməsi daxildir. Bu sərmayələrlə bağlı aşağıda ətraflı məlumat təqdim edilir.

**2) Həyat səviyyəsinə və keyfiyyətinə, adambaşına düşən məhsul buraxılışına, investisiyaların həcminə görə fərqlər, əmtəə dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturunda kəskin fərqlər aradan qaldırılmalı, ölkənin iqtisadi rayonları arasında mövcud olan fərqlər azaldılmalıdır.**

Dövlət Statistika Komitəsi (DSK) Ümumi Daxili Məhsul (ÜDM) göstəricisini yalnız Bakı şəhəri üzrə ayrıca hesablayır, ölkənin ayrı-ayrı iqtisadi rayonları üzrə bu göstəricinin həcmi müəyyən edilmir.

Mövcud informasiyalar göstərir ki, 2012-2015-ci illərdə paytaxt Bakı şəhərinin ÜDM-nin formalaşmasında xüsusi çəkisi bir qədər azalsa da, bu göstərici hələ də kifayət qədər yüksəkdir. Belə ki, rəsmi məlumatlara görə, 2012-ci ilə nisbətən 2015-ci ildə ölkənin regionlarının (Sumqayıt şəhəri və Abşeron rayonu da daxil olmaqla) ÜDM-də payı 20%-dən 24.7%-ə yüksəlmişdi[1].

Adambaşına ÜDM göstəricisinin səviyyəsi paytaxt və regionlar arasında səviyyəsi çox kəskin fərqlənir. 2012-ci ildə adambaşına ÜDM göstəricisisi Bakı şəhərində 20 400 manat, ölkənin yerdə qalan regionları üzrə orta hesabla 1500 manat olmuşdu. 2015-ci ildə adambaşına ÜDM göstəricisisi Bakı şəhəri üzrə 18 500 manat, ölkənin yerdə qalan regionları üzrə orta hesabla 1800 manat təşkil edib.

DSK ÜDM-nin regional strukturunu müəyyənləşdirməsə də, hər bir iqtisadi region və region daxilində rayonlar üzrə ümumi məhsul buraxılışı göstəricisini hesablayır. Bu göstərici ÜDM-dən fərqli olaraq yeni yaradılmış əlavə dəyəri yox, məhsulun (xidmətin) bütün buraxılış dəyərini (aralıq istehlak+əlavə dəyər) nəzərə alır.

Rəsmi statistikanın məlumatları göstərir ki, 2012-ci il baza ili kimi qəbul edilsə, son 3 ildə adambaşına düşən məhsul buraxılışına görə iqtisadi rayonlar arasında fərqlərdə nəzərəçarpacaq azalma müşahidə edilməyib. Ölkənin inzibati rayonları üzrə isə bu fərq daha kəskindir. Əlavədə təqdim edilən cədvəldə bu fərqlər barədə ətraflı məluamtlar təqdi edilir (**Bax: *Əlavə 1***).

2012-ci ildə ümumi məhsul buraxılışının adambaşına həcmi ən aşağı səviyyəsi Lənkəran iqtisadi rayonunda qeydə alınmışdı – 1303 manat. Bu, həmin dövrdə ən yüksək adambaşına ümumi məhsul buraxılışına malik Naxçıvan iqtisadi rayonunun göstəricisinin 20.6%-ni təşkil edirdi. 2015-ci ildə də ən aşağı və yüksək göstərici yenə də bu 2 iqtisadi rayonda qeydə alınıb. Ötən müddətdə fərq bir qədər azalsa da, yenə də

[1] http://www.baku.azstat.org/menu/publication/

Naxçıvan iqtisadi rayonu üzrə adambaşına ümumi məhsul buraxılışının məbləği Lənkəran iqtisadi rayonun anoloji göstəricisindən 5 dəfə çoxdur.

Adambaşına ümumi məhsul buraxılışının məbləğinin digər iqtisadi rayonlara nisbətən daha az olduğu regionlar Şəki-Zaqatala və Dağlıq Şirvan rayonlarıdır. Yerdə qalan regionlar üzrə bu göstəricinin səviyyəsi bir-birinə çox yaxındır və 2200-2700 manat intervalında dəyişilir.

Amma ümumilikdə Naxçıvan İqtisadi rayon istisna olmaqla digər iqtisadi rayonların adambaşına ümumi məhsul buraxılışının həcmi paytaxt Bakı şəhərinin anoloji göstəricisindən orta hesabla 8-9 dəfə çoxdur.

Lakin rəsmi statistik məlumatlar göstərir ki, adambaşına ümumi məhsul buraxılışının həcminə görə iqtisadi rayonlar arasında mövcud olan fərqlər ölkənin ayrı-ayrı inzibati rayonlarında da müşahidə edilir. Statistik məlumatların təhlili göstərir ki, investisiyaların, dövlətin infrastruktur layihələri hesabına yönəltdiyi sərmayələrin həcminin yüksək olduğu ərazilərdə adambaşına ümumi məhsul buraxılışının həcmi də digər rayonlara nisbətən yüksək olur. Məsələn, 2010-2015-ci illərdə həm Neft Fondunun, həm də hökumət zəmanəti ilə alınan xarici kreditlər hesabına ölkənin Şimal rayonlarında "Taxtakörpü" Su anbarının, "Taxtakörpü" SES-nin və Samur-Abşeron kanalının yenidən qurulması kimi dəyəri 2 milyard dollara çatan böyük layihələrin həyata keçirilməsi Xızı, Şabran və Siyəzən kimi rayonları adambaşına ümumi məhsul buraxılışının həcminə görə daha önə çıxarıb və bu rayonlarla digər rayonlar arasında fərqi xeyli artırıb. Məsələn, Xızı, Siyəzən və Şabran 2012-2015-ci illərdə adambaşına ümumi məhsul buraxılışının həcminə görə ən yüksək göstəriciyə malik 10 rayon və regional şəhər arasındadır. Rayonlar arasında fərqlərlə bağlı təfsilatlı məlumatlar Əlavədəki cədvəldə təqdim edilir **(Bax: *Əlavə* 2).** Rəsmi statistik məlumata görə, 2012-2015-ci illərdə adambaşına ümumi məhsul buraxılışının həcminin ən yüksək səviyyəsi Xızı, ən aşağı səviyyəsi Yardımlı rayonunda qeydə alınıb. Bu rayonlar arasında fərq 2012-ci ildə 3.9 dəfə təşkil etdiyi halda, 2015-ci ildə daha da genişlənib və 5.3 dəfəyə yüksəlib. 2015-ci ildə Xızı rayonunda ümumi məhsul buraxılışında böyük investisiyaların yatırıldığı tikinti sektorunun payı 41.3%, Yardımlı da isə 13.9% təşkil edib[2]. Yuxarıda da qeyd edilidiyi kimi, rayonlara qoyulan sərmayələr arasında kəskin fərq özünü məhsul buraxılışında göstərir.

Rəsmi statistikanın məlumatına görə son 3 ildə (2013-2015-ci illərdə) ölkə iqtisadiyyatı üzrə əsas kapitala investisiyaların həcmi 47.9 milyard manat olub ki, bunun da 34.1 milyard manatı və ya 71.2%-i Bakı şəhərinin, 13.8 milyard manatı (28.8%) Sumqayıt və Abşeron rayonu da daxil olmaqla ölkənin digər rayon və şəhərlərinin payına düşüb.

Əsas kapitala investisiyaların regional strukuturu ilə bağlı rəsmi statistiki məlumatlara görə, təhlil aparılan dövrdə Bakıdan sonra ən yüksək çəki Aran iqtisadi rayouna məxsus olub. Bu iqtisadi rayon üzrə 3 illik investisiyaların həcmi 3.8 milyard manata yaxın olub ki, bu da ölkə üzrə ümumi göstəricinin 7.9%-nə bərabərdir.

---

[2] Təhlildə istifadə olunan məlumatlar Dövlət Statistika Komitəsinin regionlarda ümumi məhsul buraxılışına dair təqdim etdiyi cədvəllərdən götürlüb http://www.stat.gov.az/source/system_nat_accounts/

2013-2015-c illərdə əsas kapitala məcmu investisiyalarda digər iqtisadi rayonların xüsusi çəkisi belə olub: Naxçıvan iqtisadi rayonu 6%, Gəncə-Qazax iqtisadi rayonu 5%, Abşeron iqtisadi rayonu 3.1%, Quba-Xaçmaz iqtisadi rayonu 2.3%, Şəki-Zaqatala iqtisadi rayonu 2.2%, Lənkəran iqtisadi rayonu 1.9%, Yuxarı Qarabağ iqtisadi rayonu 0.4%. Rayonlar üzrə investisiyaların həcmi ilə bağlı məlumatlar Əlavədəki cədvəldə təqdim edilir **(Bax: *Əlavə* 3).**

Rəsmi statistik məlumatlara görə, 2013-cü ilə nisbətən 2015-ci ilin yekunlarına görə Şəki-Zaqatala iqtisadi rayonunda əsas kapitala investisiya qoyiluşlarının həcmi 3 dəfə, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 2 dəfə, Quba-Xaçmaz iqtisadi rayonunda 1.8 dəfə, Abşeron iqtisadi rayonu  üzrə 33%, Gəncə iqtisadi rayonu üzrə 31%, Aran iqtisadi rayonu üzrə 26%, Naxçıvan iqtisadi rayonu üzrə 9% azalmışdı. Lakin eyni dövrdə investisiyaların həcmi Lənkəran iqtisadi rayonu üzrə 19%, Bakı şəhəri üzrə 6.6% artmış, Dağlıq Şirvan iqtisadi rayonu üzrə demək olar eyni səviyyədə qalmışdır[3].

DSK regionlara investisiya qoyuşlarının mülkiyyət növləri üzrə strukturuna dair məlumat açıqlamadığı üçün kapital qoyuluşlarının strukturunda baş verən dəyişikliklərin dövlət, yoxsa özəl sektorun davranışları ilə bağlı olduğunu, investisiyaların ərazilər üzrə qeyri-bərabər bölgüsünün səbəblərini, bütövlükdə regionlara sərmayə qoyuluşlarında özəl sektorun fəallığını qiymətləndirmək mümkün deyil.

Ölkənin inzibati rayonları üzrə əsas kapitala investisiya qoyuluşlarının həcmi  də bir-birindən kəskin fərqlənir. Bu investisiyaların həcmini ölkə və paytaxt Bakı şəhəri üzrə orta göstərici ilə müqayisə etdikdə real mənzərə daha aydın görünür. 2013-2015-ci illər üzrə iqtisadiyyat üzrə əsas kapitala investisiyaların məbləği orta hesabla 5.0 min manat, Bakı şəhəri üzrə 15.5 min manat təşkil edib. Ölkənin digər inzibati ərazilərini Bakı şəhəri ilə müqayisə etsək, ən yüksək göstərici paytaxt şəhərindən təxminən 2.5 dəfə, ən aşağı göstərici isə 30 dəfə azdır.

Amma bu fərq yalnız paytaxt və regionlar arasında müşahidə edilmir. Digər iqtisadi regionlara daxil olan rayon və şəhərlər üzrə də anoloji fərqləri müşahidə etmək mümkündür.

Təhlil aparılan dövrdə əsas kapitala investisiyaların əhalinin hər nəfəri hesabı ilə həcminə görə ən yüksək və ən aşağı göstəriciyə malik 10 inzibati ərazi arasında fərqlə kifayət qədər böyükdür. Əlavədə təqdim edilən cədvəldə regionlar üzrə investisityaların adambaşına məbləğindəki fərqlər təqdim olunur (**Bax: *Əlavə* 4**).

Rəsmi məlumatlara görə, təhlil aparılan dövr üzrə əsas kapitala investisiyaların ən yüksək göstərici Xızı rayonu üzrə qeydə alınıb – 6650 manat. Ən aşağı göstərici isə Samux rayonunda olub – 520 manat. Deməli, yüksək və aşağı göstərici arasında fərq təxminən 13 dəfə təşkil edir.

Yüksək əlavə dəyər yaradan sənaye və turizm sektorunun artıq müəyyən qədər inkişaf yolu keçdiyi ərazilərdə investisiyaların nisbətən yüksək göstəricilərə malik ərazilərlə

[3] Təhlildə istifadə olunan məlumatlar Dövlət Statistika Komitəsinin regionlar üzrə tikintinin əsas göstəricilərinə dair təqdim etdiyi  cədvəllərdən götürlüb http://www.stat.gov.az/source/construction/

müqayisədə az olmasını kompensasiya edə bilir və bu həmin ərazilərin ümumi məhsul buraxılışının da eyni proporsiyada az olmasına imkan vermir. Məsələn, Xaçmaz rayonu əsas kapitala investisiya qoyuluşlarının adambaşına düşən səviyyəsinə görə ən aşağı göstəriciyə malik 10 inzibati ərazi arasında yer alsa da, adambaşına ümumi məhsul buraxılışına görə son 10-luqda deyil. Xaçmazın həm turizm potensialı, həm də sənaye potensialının mövcudluğu rayon iqtisadiyyatının nisbətən yüksək məhsul buraxılışı üçün imkan yaradır.

İqtisadi regionlar arasında fərqlər özünü əmtəə dövriyyəsinin həcmində də göstərir. 2015-ci ildə ölkə üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 25.7 milyard manat olub ki, bunun da 14.1 milyard manatı və ya 55%-i Bakı şəhərinin, 45%-i isə ölkənin regionlarının payına düşüb. Əhalinin hər nəfəri hesabı ilə illik pərakəndə əmtəə dövriyyəsinin həcminə görə ölkənin regionları arasında məbləğ Naxçıvan iqtisadi rayonunda qeydə alınıb – 2760 manat. Ən aşağı göstərici isə Lənkəran iqtisadi rayonunda qeydə alınıb – 1390 manat. Göründüyü kimi, adambaşına illik pərakəndə əmtəə dövriyyəsinin həcminə iqtisadi regionlar arasında fərq təxminən 2 dəfə təşkil edir. Anoloi göstərici digər iqtisadi rayonlardan Şəki-Qax iqtisadi rayonunda 1480 manat, Dağlıq Şirvan iqtisadi rayonunda 1630 manat, Quba-Xaçmaz iqtisadi rayonunda 1680 manat, Gəncə iqtisadi rayonunda 1710 manat, Aran iqtisadi rayonunda 1780 manat, Abşeron iqtisadi rayonunda 1785 manat təşkil edib.

Ölkənin müxtəlif inzibati rayon və şəhərlər arasında fərqlər adambaşına yerli gəlirlərin həcmində də özünü göstərir. 2015-ci ilin büdcəsinin məlumatlarına əsasən adambaşına yerli gəlirlərin həcminə görə ölkənin ən yüksək və aşağı göstəriciyə malik əraziləri arasında fərq 12 dəfəyə çatır. Əlavədə təqdim edilən cədvəldə regionlar büdcə gəlirlərinin adambaşna həcm ilə bağlı ətraflı məlumatlar təqdim olunur (**Bax:** ***Əlavə 5***).

Rəsmi statitik məlumatlara görə, adambaşına yerli gəlir səviyyəsinə görə ən aşağı göstəriciyə (27-28 manat) malik Lerik və Tovuz kimi rayonların göstəricisi ən yüksək adambaşına gəlirə malik Naftalal və Mingəçevir kimi şəhərlərin göstəriciləindən orta hesabla 12 dəfə, İmişli və Xaçmaz kimi rayonların anoloji göstəriciləri ilə müqayisədə təxminən 6 dəfə azdır.

Ev təsərrüfatlarnın müayinəsinə görə, iqtisadi rayonlar üzrə əhalinin gəlirl səviyyəsi arasında fərqlər yoxdur. Məsələn, 2015-ci ildə bütün Bakı istisna olmaqla ölkənin bütün iqtisadi rayonları üzrə adambaşına aylıq gəlirlər 230-240 manat intervalında olub. Lakin həyat səviyyəsini xarakerizə edən bir sıra göstəricilər əhalinin real gəlirləri arasında fərqlərin daha böyük olduğunu ehtimal etməyə imkan verir. Məsələn, DSK-nın başqa bir rəsmi məlumatına görə, hər 100 ailəyə düşən minik avtomobillərinin sayı Lerik, Yardımlı, Siyəzən, Xızı və Neftçala kimi rayonlarda 16-17 ədəd təşkil etdiyi halda, Şəmkir və Goranboy kimi rayonlarda 40 ədəd ətrafındadı. Göründüyü kimi minik ailələrin minik avtomobillərinə sahiblik səviyyəsinə görə inzibati rayonların ən yüksək və aşağı göstəricləri arasında fərq 2 dəfədən çoxdur.

Aqrar sektorun üstün çəkiyə malik olduğu ərazilərdə torpaq resurslarının həcmi arasındakı fərqlər də son nəticədə regionların iqtisadi inkişafında fərqlər yaradır. Məsələn, kənd təsərrüfatına yararlı torpaqların adambaşına sahəsinin ən yüksək

olduğu ərazilərlə ən aşağı göstəriciyə malik ərazilər arasında fərq 10 dəfədən çoxdur. Astara, Lənkəran və Masallı rayonlarında bu göstərici 0.11-0.16 hektar intervalında olduğu halda, Goranboy və Biləsuvarda 1.3 hektara yaxındır.

**3) Müasir yanaşma çərçivəsində iqtisadi qərarların qəbul olunmasında yerli özünüidarəetmə orqanlarının çevikliyi artırılmalıdır.**

İnkişaf Konsepsiyasında yerli iqtisadi inkişafla bağlı qərarların qəbulunda yerli özünüidarənin çevikliyinin artırılmasının vacibliyi vurğulansa da, Konsepsiyanın qüvvədə olduğu 4 ilə yaxın dövr ərzində qəbul edilən qanunvericilik aktlarında bu təklifin reallaşdırılması üçün konkret hüquqi mexanizmlər müəyyən edilməyib.

Ümumiyyətlə tarazlı regional inkişafın təmin olunması yerli səviyyədə idarəetmənin səmərəli təşkilindən bilavasitə asılıdır. Yerli özünüidarə yerli icmaların öüzünütəşkilinin, icma maraqları ilə bağlı kollektiv qərarverməninin forması kimi meydana çıxır. Onlar təmsil etdiyi icmaların sosial-iqtisadi problemlərinin həllində dövlətlə əhali arasında vasitəçi rolunda çıxış etməklə yanaşı, inzibati idarəçiliyin ən aşağı həlqəsi kimi qəbul olunur.

Keçid ölkələrində bələdiyyələrin yaradılmasına və yerli özünüidarə islahatlarının aparılmasına maraq yerli icmaların öz yaşadıqları ərazinin inkişafında rolunun artırılmasına olan gözləntilərlə bağlıdır. Lakin bu sahədə uğur qazanmış ölkələrin təcrübəsi göstərdi ki, «yerli öüzünüidarə» anlayışını bələdiyyələrlə məhdudlaşdırmaq olmaz. Fermer birlikləri, kənd inkişafını dəstəkləyən bələdiyyə fondları da icma yerli özünüidarəçiliyi institutunun elementlərindən sayılır. Bələdiyyələr isə əhalinin öz sıralarından səsvermə ilə formalaşdırdığı, adıçəkilən təsisatlar arasında əlaqələndirməni təmin edən strukturlardır. Mərkəzi dövlət idarəetmə orqanları bir qayda olaraq ölkə miqyaslı, xüsusilə strateji əhəmiyyətli problemlərin həllinə daha prioriet yanaşırlar, lakin yerli özünüidarə təsisatları lokal problemlərə, bir regionun, rayonun və ya kəndin sərhədlərilə hüdudlanan layihələrə təşəbbüs göstərirlər, onlar bilavasitə icmaların özündən formalaşdığından problemlərə məhz icmanın ehtiyaclarından yanaşırlar. Doğurdan da hakimiyyətin əhaliyə tamamilə yaxınlaşdırılması, icma yerli özünüidarəçiliyi üçün real alətlərin (büdcə, qərarvermə səlahiyyəti və s.) təqdim olunması yerli inkişaf potensialının tamamilə üzə çıxarılmasını stimullaşdırır. Regionların sosial inkişafında yerli özünüidarənin rolu o zaman həlledici olur ki, lokal əhəmiyyətli iqtisadi problemlərin həlli, sosial infrastrukturun formalaşdırılması ilə bağlı qərar qəbuletmə və maliyyəyə sərəncamvermə səlahiyyəti məhz bu qurumlara həvalə olunur, onların real müstəqilliyi təmin edilir.

Hələlik ölkədə bələdiyyələrin maliyyə potensialının və müstəqilliyinin, həmçinin lokal əhəmiyyətli sosial-iqtisadi problemlərin həlli ilə bağlı qərar qəbuletmə səlahiyyətinin arıtılması ilə bağlı yerli özünüidarənin fəaliyyəti ilə bağı qanunvericiliyə dəyişiklik edilməsi baş verməyib.

**4) Ölkənin bölgələrində, o cümlədən kənd yaşayış məntəqələrində kommunal infrastruktur və yol təminatının yaxşılaşdırılması, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, kənd yerlərinin inkişafı istiqamətində xüsusi layihələrin həyata keçiriləməsi tədbirləri davam etdirilməli, kəndlərin yol problemi daim diqqətdə saxlanılmalıdır;**

2013-2015-ci illərdə kənd yerlərinin inkişafının təmin edilməsi istiqamətində bir sıra layihələr həyata keçirilmişdir. Həmin layihələrə daxildir:

**(1) Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (İFAD) həyata keçirdiyi layihələr.** Dəyəri 64.7 mln. dollar olan "Şimal Qərb İnkişafı" layihəsi çərçivəsində Ağstafa, Tovuz və Qazax rayonlarının kəndlərində 847 km uzunluğunda suvarma kanalları bərpa edilmiş, 50 km-dək drenaj şəbəkəsi bərpa edilmiş, 3000-dək hidrotexniki qurğu quraşdırılmışdı.

Dəyəri 103.7 mln. dollar olan, İFAD və İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Kənd Yerlərinin Kompleks İnkişafı" layihəsi çərçivəsində Ağdaş, Oğuz, Yevlax və Şəki rayonlarında sahəsi 100 min hektara qədər təsərrüfatdaxili suvarma sistemlərinin bərpası ilə bağlı layihə-smeta işlərinin hazırlanması tam başa çatdırlmışdır və 2016-cı ilin əvvəllərindən etibarən həmin layihələrin bir hissəsinin icrasına başlanmışdır.

**(2) Dünya Bankının həyata keçirdiyi layihələr.** Dəyəri 140 mln. dollardan çox olan "Azərbaycan İkinci Kənd İnvestisiya Layihəsi" çərçivəsində Qax, Zaqatala, Salyan, Quba, Xaçmaz, Ağsu rayonlarında, habelə Naxçıvan MR-nın ərazisində 800-ə yaxın infrastruktur layihəsi həyata keçirilmişdir ki, onlardan da 400-ə qədəri yol-bərpa layihəsi bağlı olub. Digər layihələr kəndlərdə içməli su təchizatı, uşaq bağçasının və tibb məntəqəsinin bərpası, drenaj sisteminin və elektrik sistemini yenidən qurulması layihələri olmuşdur.

2013-2015-cı illərdə ümumilikdə ölkənin bölgələrdə infrastruktur təminatının yaxşılaşdırılması məqsədilə atılan əsas addımlar aşağıdakılar olub.

**(i) Regionların qaz təchizatının yaxşılaşdırılması.**

2013-2015-ci illərdə ölkənin regionlarında 705 yaşayış məntəqəsində 600 min nəfərə yaxın əhali qazla təchiz edilmiş, 12 yaşayış məntəqəsində isə qaz təchizatının yaxşılaşdırılaması üçün yenidənqurma işləri görülmüşdür[4].

Regionların qazlaşdırılması məqsədilə ARDNŞ 2013-2016-cı illərdə dövlət büdcəsinin investisiya xərclərindən 250 milyon manat dəstək alıb. Eyni zamanda, bilavasitə regionların qazla təchizatını yaxşılaşdırmaq üçün 2014-cü ildə Mərkəzi Bank SOCAR-a 10 il ərzində qaytarmaq şərtilə 472.8 milyon manat kredit ayırıb.

DSK-nın məlumatına görə, 2012-ci illə müqayisədə 2016-cı ildə kənd yaşayış məntəqələrində qazalaşdırılmış mənzillərin sayı 62.5% artaraq 395 mindən 543 minə çatıb. 2016-cı ilin əvvəlinə olan məlumata görə, ölkədə mənzillərin ümumi sayı 1.9

[4] Mənbə: Nazirlər Kabinetinin 2013-2015-ci illərdə hökumətə təqdim etdiyi illik hesabatlar

milyondur ki, bunun da 800 mini kəndlərin payına düşür. Bu o deməkdir ki, hazırda kənd yaşayıq məntəqələrində bütün mənzillərin 68%-i artıq qazlaşdırlıb. Deməli, hələ də kəndlərdə hər 100 mənzildən 32-nin qazlaşdırılmasına ehtuyac var ki, bu da təxminən 257 min mənzil deməkdir. Ümumulikdə 2012-2016-cı illərdə ölkə üzrə 325 min mənzil qazlaşdırılıb və bundan 148 mini və ya 46%-i kənd yaşayış məntəqələrinin payına düşüb[5].

Ərazilərin qaz təchizatının yaxşılaşdırılması təkcə ev təsərrüfatlarının məişət şəraitinin yaxşılaşdırılması baxımından önəmli deyil. Biznes sektoru, xüsusilə də istilik sisteminin qurulmasını tələb edən aqrar təsərrüfatların fəaliyyət üçün əlahiddə dərəcədə mühümdür. Eyni zamanda, əhalinin əyalətlərdə səmərəli məskunlaşması, regionlarda fəaliyyət göstərən müəssisələrin ehtiyac duyduğu ixtisaslı kadrların daha rahat həyat şəraiti üçün iri şəhərlərə miqrasiya etməməsi üçün əyalətlərdə qaz infrastrukturunun mövcudluğu biznesin mühitinin yaxşılaşdırılması baxımından olduqca önəmlidir.

**(ii) Yol-nəqliyyat infrastrukturu**

2013-2015-ci illərdə ölkənin regionlarında 1466 km yol təmir edilmiş və yenidən qurulmuşdur ki, bunun 774 km-i respublika, 692 km isə yerli əhəmiyyətli yollar olmuşdur. Avtomobil yolları üzərində 82 körpü tikilmiş, 28 ədəd körpü təmin edilmiş, 2 tunel tikilmiş. Ən böyük layihələr kimi artıq tikintisi başa çatan Qəbələ-Ağdaş və Dilman-Xatman yollarının bərpasını, Şəki-Qax, Ağsu-Kürdəmir, Göyçay-Ucar, Gəncə dairəvi yolunun, Tağıyev-Sahil, Hacıqabul-Bəhramtəpə, Ağstafa-Poylu, Ələt-Şorsulu, Hacıqabul-Sabirabad, Qəbələ-Oğuz yollarını göstərmək mümkündür. Ümumilikdə bu layihələrin həyata keçirilməsinə 465 mln. manat xarici kredit, 226 mln. manat isə büdcə vəsaiti xərclənmişdi.

Ümumilikdə 2013-2015-c- illərdə dövlət zəmanəti ilə alınmış xarici kreditlər və büdcə vəsaitləri hesabına avtomobil yolları təsərrüfatının saxlanmasına və yenidən qurulmasına 3.375 milyard manat xərclənib. Xərclənən vəsaitlərin 2.5 milyard manata qədəri ölkənin regionlarının payına düşür.

Yuxarıda qeyd olunan layihələr əsasən iqtisadi və inzibati rayonları (şəhərləri) bir-birilə birləşdirən magistral yollardır. Kənd yaşayış məntəqələrində yol infrastrukturunun yenidən qurulması və bərpası isə əsasən "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun və Prezidentin Ehtiyat Fondunun vəsaitləri hesabına həyata keçirilir. 01 yanvar 2013-cü il taruxdən 10 oktyabr 2016-cı ilədək olan dövrdə ölkə prezidentinin ümumilikdə 79 sərəncamı ilə 249.5 milyon manat sərmayə qoyulub. Bu sərmayə ümumilikdə 798 kənd yaşayış məntəqəsini bir-birilə əlaqələndirən yol və körpü layihələrinə sərf edilib.

Bələdiyyələrin sərəncamında olan yerli əhəmiyyətli (ərazidaxili) yolların ümumi həcmi, onların durumu, təmirə və yenidənqurmaya ehtiyacı olan, yeni çəkilməli olan yolların həcmi ilə bağlı açıq informasiya mənbələrindən (hökumətin hesabatları, bələdiyyə

---

[5] Kənd yerlərində qazlaşdırılan mənzillərin sayı ilə bağlı məlumatlar DSK-nın "mənzillərin qazalaşdırılması" başlığı ilə təqdim etdiyi cədvəldən götürlüb http://www.stat.gov.az/source/construction/

assosiasiyalarının hesabatları, rəsmi online resurslar) heç bir məlumat tapmaq mümkün deyil.

**(iii) Energetika sektoru**

Rəsmi məlumata görə, 2013-2015-ci illərdə ölkənin regionları üzrə 8500 km-dək elektrik verilişi xətləri çəkilmiş, 6676 km elektrik verilişi xətləri təmir edilmiş, 185 ədəd yeni transformator quraşdırılmış, 89 ədəd transformator daha güclülələri əvəzlənmiş, 10 000 ədəddən artıq transformator təmir edilmişdir.

3 il ərzində Şərurda "Arpaçay" və "Arpaçay-2" SES-ləri, Şirvanda "Cənub" Elektrik Stansiyası, İsmayıllı rayonunda "İsmayıllı-1" SES, Şabranda "Taxtakörpü" SES, Şəmkirdə "Şəmkirçay" SES və Füzulidə SES istifadəyə verilmişdir. Göstərilən elektrik stansiyalarının ümumi gücü 80 MVt-a yaxındır.

**(iv) İçməli su və kanalizasiya sistemi**

2013-2015-ci illərdə ölkənin regionlarında 707 km magistral olmaqla 4100 km uzunluğunda su xətti, 1144 km uzunluğunda kanalizasiya xətti çəkilmiş, ümumi tutumu 369 min kubmetr olan 94 ədəd su anbarı, 1 ədəd sutəmizləyici qurğu kompleksi tikilmişdi.

Ümumilikdə 2013-2015-ci illərdə ölkənin regionlarında su-kanalizasiya sistemlərinin qurulmasına xaricdən alınmış kreditlər və dövlət büdcəsinin vəsaiti hesabına 1.5 milyard manata manata yaxın vəsait xərclənmişdi.

Konkret ərazilər üzrə içməli su və kanalizasiya layihələrinə gəldikdə, "Azərsu" ASC-nin məlumatına görə, regionların inkişafı üzrə dövlət proqramı çərçivəsində ölkənin regionlarında yerləşən 52 şəhər, 750 kəndi əhatə edən içməli su layihələri həyata keçirilir ki, artıq bunun əsas hissəsi başa çatıb. Layihələr həm dövlət büdcəsindən ayrılan vəsaitlər, həm də beynəlxalq təşkilatlardan alınan kreditlər hesabına gerçəkləşdirlir.

Şirvan-Muğan qrup su kəməri Biləsuvar, Neftçala, Salyan, Şirvan və Hacıqabul şəhərlərinin, həmçinin magistral kəmər boyunca yerləşən 121 kəndin, ümumilikdə 470 min sakinin su təminatına imkan yaradıb. Bu kəmərin təkcə Biləsuvara qədər olan hissəsinin uzunluğu 107 km təşkil edir.

Kür sutəmizləyici qurğularının imkanlarından istifadə edilməklə Saatlı və Sabirabad şəhərlərinin, həmçinin 36 kəndin su probleminin həllini təmin edəcək layihə həyata keçirilib. Bu məqsədlə Saatlı və Sabirabad şəhərlərini su ilə təmin edən, uzunluğu 65 kilometr olan magistral kəmər inşa olunub. Bu layihənin icrası nəticəsində Saatlı və Sabirabad rayonlarının ümumilikdə 100 mindən artıq sakini keyfiyyətli su ilə təmin edilib.

Regionlarda həyata keçirilən böyük layihələrdən biri Mərkəzi Aran bölgəsini əhatə edən, Girdimançayın yatağında yerləşən Külüllü su mənbəyi layihəsidir. Ucar, Zərdab, Kürdəmir, Ağsu şəhərlərini, həmçinin 67 kəndi əhatə edən layihə çərçivəsində

məhsuldarlığı saniyədə 500 litr olan suqəbuledici qurğu tikilmiş, buradan Kürdəmir, Ucar, Zərdab və Ağsu şəhərlərinə ümumilikdə 170 kilometr uzunluğunda magistral kəmərlər çəkilmiş, 4 şəhərin hər birinə içməli suyun verilməsi təmin edilmişdir. Bu layihə 170 mindən artıq əhali su ilə təmin etməyə imkan verir.

Tikintisi başa çatan Şəmkirçay su anbarı Gəncə şəhərinin, Şəmkir və Samux rayonlarının içməli su təminatında əsas mənbə kimi istifadə olunmağa başlayıb.

Cənub bölgəsində yerləşən yaşayış məntəqələrinin su təchizatı üçün mənbə kimi Xanbulan və Viləşçay su anbarları seçilmişdir. Xanbulançay dəryaçası yaxınlığında Lənkəran, Astara şəhərləri və 39 kəndi su ilə təmin edəcək sutəmizləyici qurğu tikilmiş, Xanbulan-Lənkəran magistral su kəmərinin tikintisi başa çatdırılmış, Lənkəran şəhərinə içməli suyun verilməsi təmin edilmişdir. Astara şəhəri və rayonun kəndlərinin su təchizatının aparılması üzrə layihələndirmə işləri başa çatdırılmışdır və tikinti işlərinə bu ilin ikinci rübündə başlanılacaqdır.

Masallı və Cəlilabad şəhərlərinin su təminatının yaxşılaşdırılması məqsədilə Viləşçay anbarı yaxınlığında sutəmizləyici qurğunun və magistral kəmərin tikintisi davam etdirilir. Masallı rayonunun Muğan bölgəsinin ciddi su problemi olan 23 yaşayış məntəqəsinin və Yardımlı rayonunun 17 kəndinin də su təminatı layihələrinin icra edilir.

Oğuz və Şəki rayonlarında 21 min sakini olan 9 kəndi əhatə edən Balaşum-Böyük Söyüdlü-Qaratorpaq kəməri tikilərək istifadəyə verilmişdir. Cəbhə bölgəsində yerləşən Ağdam, Füzuli, Tərtər və Goranboy rayonlarının sərhədyanı 8 kəndində, həmçinin Cəbrayıl rayonundan olan məcburi köçkünlər üçün Biləsuvar ərazisində salınmış 6 qəsəbədə su təchizatı sistemləri yaradılmışdır.

Su qıtlığı müşahidə olunan kəndlərdə ümumilikdə 135 subartezian quyusu qazılmış, 690 kilometr su xətti çəkilmiş, 36 su anbarı tikilmiş, nəticədə 210 mindən artıq əhalisi olan 280 kəndin içməli su təminatı yaxşılaşdırılmışdır[6].

40-dək rayon mərkəzinin kanalizasiya sisteminin qurulması artıq başa çatıb. Təxminə 10 rayon mərkəzində isə tikinti işləri davam etdirilir.

### (v) Suvarma suyu ilə təchizat

2013-2015-ci illərdə dövlət büdcəsi və xarici kreditlər hesabına dəyəri 1 milyard manatdam çox olan meliorasiya-irriqasiya layihələri həyata keçirilmişdi. Həmin dövrdə 40-dan artıq rayonun 500-dək yaşayış məntəqəsində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 804 subartezian quyularının qazılmasına Prezidentin ehtiyat fondundan 54.5 milyon manat ayrılmışdır. Bu artezianların xidmətindən 600 mindən çox kənd əhalisi bəhrələnir və yüzlərlə fermer təsərrüfatı bəhrələnir.

Göstərilən dövrdə 20-dək kənd yaşayış məntəqəsində, qış otlaqlarında qrunt sularının səviyyəsinin aşağı salınması üçün 300 pm-dən artıq kollektor-drenaş şəbəkəsi

[6] http://azersu.az/62-%C3%87%C4%B1x%C4%B1%C5%9Flar

qurulmuş, 7355 ha torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşmışdır. Füzuli, Ağcabədi və Hacıqabul rayonlarında dövlət mülkiyyətində olan 6450 ha torpaq sahəsini əkinə yararlı vəziyyətə gətirmək üçün bir sıra layihələr həyata keçirilmişdir. Belə ki, Yuxarı Mil kanalından, Hacıqabul magistral kanalından və Padar magistral kanalından ümumilikdə 12.5 km uzunluğunda yeni qollar inşa edilib.

Bütövlükdə 2013-2015-ci illərdə bütün maliyyə mənbələrindən ayrılmış vəsait hesabına ölkənin regionlarında 1993 km uzunluğunda suvarma kanallarının və 961 km uzunluğunda kollektor-drenaj şəbəkələri tikintisi, həmçinin yenidən qurulması həyata keçirilmişdi. Görülən meliorasiya-irriqasiya tədbirləri 135.3 min ha torpağın su təminatını, 64.3 min ha torpağın meliorativ vəziyyətini yaxşılaşdırmış, 20 min ha-dan artıq yeni torpaqlar əkin dövriyyəsinə cəlbi təmin olunmuşdur.

**(vi) Rabitə və informasiya xidmətləri ilə təminat**

2013-2015-ci illərdə regionlarda rabitə-informasiya xidmətlərinə əlçatanlığın genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. Bu müddətdə ölkədə ATS-lərin sayı 1555 ədəddən 1790 ədədə çatıb. 2015-ci ilin yekunlarına görə, ölkə üzrə ATS-lərin 319 ədədi və ya 17.8%-i ölkənin regional şəhərlərində və rayon mərkəzlərində, 1300 ədədi və ya 72.6%-i kəndlərin payına düşüb. 3 il ərzində ATS-lərin sayı regional şəhərlərdə 206 ədəddən 319 ədədə, kəndlərdə isə 1186 ədəddən 1300 ədədə çatıb. Deməli, son 3 ildə ölkənin regionlarında ümumilikdə 227 yeni ATS istismara verilmişdi.

3 il ərzində Bakı istisna olmaqla ölkənin digər ərazilərində ATS-lərin nömrə tutumu 69 min ədəd artaraq 1.780 mln. ədəddən 1.855 mln. ədədə çatıb. 2015-ci ilin nəticələrinə görə, ölkə üzrə bütün nömrə tutumunun 565.4 min ədədi və ya 30.5%-i ölkənin regonal şəhərlərinin və rayon mərkəzlərinin, 354.6 min ədədi və ya 19.1%-i isə kənd yaşayış məntəqələrinin payına düşür. Təhlil aparılan dövrdə regionlarda şəhərlər üzrə ATS-lərin nömrə tutumu 46 min ədəd, kənd yaşayış məntəqələrində isə 23 min artıb.

2012-ci illə müqayisədə 2015-ci ildə ölkə üzrə mənzillərdə olan telefon nömrələrinin sayı 1.331 mln. ədəddən 1.358 mln. ədədə çatıb və hər 100 ailəyə düşən nömrə sayı 67 olub. Şəhərlərdə mənzillərdə olan telefon nömrələrinin sayı 1.165 mln. ədəddən 1.180 mln. ədədə çatıb və hər 100 ailəyə düşən nömrə sayı 97 olub. Kəndlərdə isə nömrə sayı 284 min ədəddən 279 min ədədə azalıb və hər 100 ailəyə 31 olub. Göründüyü kimi, şəhərlərdə mövcud mənzillərin 97%-i, kəndlərdə isə 31%-i telefonlaşdırılıb.

2012-ci illə müqayisədə ölkə üzrə internet istifadəçilərinin sayı 228.5 mindən 514.7 minə çatıb. Lakin rəsmi statistika internet istifadəçilərinin şəhər və kənd yerləri üzrə bölgüsünə dair məlumat təqdim etmir. Yalnız belə bir indormasiya təqdim edilir ki, son 3 ildə hazırda ölkədə hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı 70 nəfrədən 76 nəfərə, o cümlədən genişzolaqlı internet istifadəçilərinin sayı 62 nəfərdən 65 nəfərə çatmışdır. Lakin rəsmi statistikanın mənzillərin telefonla təminat göstəricisinə baxdıqda məlum olur ki, kənd mənzillərinin cəmi 31%-i telefon xidmətindən istifadə edir. Bu o deməkdir ki, hətta telefon olan bütün kənd mənzilləririnin hamısı internetə qoşulsa belə, mövcud telefonlaşma səviyyəsi kən əhalisinin maksimum 30%-nin internet xidmətinə çıxışına imkan verir.

Bununla belə, Rabitə Nazirliyi məlumat verir ki, rayon və şəhərlərin ölkənin bütün ərazisini əhatə edən "AzDataCom" şəbəkəsinə qoşulması nəticəsində bütün ərazilərin internətə çıxış üçün infrastruktur mövcuddur. Eyni zamanda, ölkənin ən ucqar kən yaşayış məntəqələrin belə internet xidmətlərinə çıxışını təmin etmək üçün 2015-ci ildə "Multimedia xidmətlərinin inkişafı" layihəsinə start verilmişdir. Belə şəraitdə yalnız telefonlaşma sürətləndirilməlidir ki, regionlarda yaşayan insanlaırn, xüsusən kənd əhalisinin internet xidmətlərindən yararlanması üşün texniki maneə olmasın.

Kənd yaşayış məntəqələrinin və mövcud ATS-lərin sayı ilə bağlı rəsmi statistik məlumatlar əsasında aparılan hesablama göstərir ki, Naxçıvan MR-da, Aran, Dağlıq Şirvan və Şəki-Zaqatal iqtisadi regionlaırnda hər 2 kənddən 1-də, Gəncə-Qazax iqtisadi regionunda hər 3 kənddən 1-də, Lənkəran və Quba-Xaçmaz iqtisadi regionlarında hər 4 kənddən 1-də ATS mövcuddur. Göründüyü kimi, sonuncu 2 regionda kəndlərin ATS-lə əhatə səviyyəsi digər regionlarla müqayisədə 2 dəfə aşağıdır.

Ölkənin ayrı-ayrı inzibati rayonları üzrə də kənd yerlərində mənzillərin telefonla təminat səviyyəsi arasında fərq böyükdü. Məsələn, Samux, Qazax, Göyöl, Zaqatala, Qax və Yevlax rayonlarının kəndləri üzrə orta hesabla hər 100 mənzildən 60-80 mənzil telefonla təmin edilib. Yəni bu rayonlar üzrə kənd mənzillərinin potensial olaraq 60-80%-i hazırda internetə qoşula bilər. Salyan, Kürdəmir, Ağdaş, Ucar, Cəlilabad, Saatlı və Sabirabad rayonlarının kəndləri üzrə orta hesabla hər 100 mənzildən 6-15 mənzil telefonla təmin edilib. Yəni bu rayonlar üzrə kənd mənzillərinin potensial olaraq 6-15%-i hazırda internetə qoşula bilər. Yerdə qalan inzibati rayonlar üzrə kənd mənzillərinin telefonla təminat səviyyəsi 16-59% intervalında dəyişilir.

İnformasiya və rabitə xidmətlərinin dəyər ifadəsində həcminin regional strukturuna da diqqət yetirdikdə aydın olur ki, ölkənin regionlarında informasiya və rabitə xidmətlərindən istifadə səviyyəsi hələlik o qədər də yüksək deyil. Rabitə və informasiya xidmətlərinə mənzildə istifadə olunan telefonlara görə abunə haqqı və beynəlxalq danışıqlar, internet ödənişləri, mobil telefon xidmətləri üçün ödənişlər, telefaks xidmətləri, poçt xidmətləri və s. üçün ödənişlər daxildir.

Məsələn, 2015-ci ildə ölkə üzrə informasiya və rabitə xidmətlərinin həcmi 1.641 milyard manat olub ki, onun da təxminən 94%-i və ya 1.538 milyard manatı Bakı şəhərinin payına düşüb.

**5) Turizm və rekreasiya zonalarının, iqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin, hər bir bölgənin rəqabət üstünlükləri nəzərə alınmaqla yeni regional inkişaf mərkəzlərinin yaradılması;**

Konsepsiyada əks etdirilən yanaşmanı nəzərə alaraq regionların ənənəvi ixtisaslaşma səviyyəsinə, resurslarına (ilk növbədə istehsal və əmək resurslarına) və təbii imkanlarına uyğun olaraq klasterləşmənin tətbiqi istiqamətində müəyyən təşəbbüslər var. Axır illərdə müxtəlif ərazilərdə ixtisaslaşmış (məsələn, kimya və texnologiya məhsulları, həmçinin turzim xidmətlərinin göstərilməsi üzrı) klasterlərinin yaradılması ilə bağlı qərarların qəbulunu buna nümunə göstərmək mümkündür. Məsələn, Sumqayıtda 2 müxtəlif profil - kimya və texnologiyalar üzrə parkların yaradılması onu

göstərir ki, hökumət bu şəhəri əsasən həmin sahələr üzrə ixtisaslaşdırmağı hədəf kimi seçib. Sumqayıtda keçmiş SSRİ-də kimya sənayesinin mövcudluğu, ixtisaslı kadrların və istehsal ənənəsinin olması şəhərdə bu sahə üzrə klasterin yaradılmasının əsas motivlərindən biri idi. Sumqayıt Kimya Parkında müxtəlif kimyəvi məhsulların istehsalı təşkil edilib. Sumqayıt Texnologiyalar Parkının əsas məhsulları isə elektrik avadanlıqları, kabellər, polimer məhsulları, polad emalı, qaynar sinkləmə, ventilyasiya sistemləri, günəş kollektorları və boyamadır.

Mingəçevir şəhərində və Bakının Piralllahı rayonunda da Yüksək Texnologiyalar parklarının yaradılması ilə bağlı qərarlar göstərir ki, həmin ərazilərin də yüksək texnoloji məhsulların istehsalı üzrə ixtisaslaşdırılması planlaşdırılır. Mingəçevirdə yardılması ilə bağlı qərar qəbul edilən sənaye parkının isə toxuculuq sənayesi üzrə ixtisaslaşacağı bəyan edilib.

Lakin bəzi regionlarda yaradılması barədə artıq rəsmi qərar qəbul edilmiş sənaye park və məhəllələrinin iqtisadiyyatın konkret sahələri ixtisaslaşacağı, yoxsa universal parklar olacağı qeyri-müəyyən olaraq qalır. Neftçalada isə Sənaye Məhəlləsi və Masallı Sənaye Parkı buna misaldır.

Oxşar yanaşmanın turizm sektorunun da timsalında coğrafi klasterlərin formalaşdırılmasına da tətbiq edilməsinə start verilib. Belə ki, Nazirlər Kabinetinin 2016-cı il avqustun 1-də imzaladığı 286 saylı qərara əsasən, Azərbaycanda turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli olan ərazilərdə turizm və rekreasiya zonalarının yaradılmasına başlanır. Bu qərara əsasən 3 coğrafi ərazi turizm və rekreasiya zonası elan olunub. Bu ərazilər "Xızı-Xaçmaz" turizm və rekreasiya zonası, "Quba" turizm və rekreasiya zonası, "Qusar" turizm və rekreasiya zonasıdır. Qərara əsasən, hər 3 zonanın xəritəsi təsdiqlənib, eyni zamanda zonaların təşkili üçün zəruri torpaq ərazilərinin sahəsi müəyyən edilib. Belə ki:

- *Xızı rayonunun 7969,22 hektar, Siyəzən rayonunun 14365,44 hektar, Şabran rayonunun 25833,78 hektar, Xaçmaz rayonunun 33832,40 hektar inzibati ərazilərində Xızı-Xaçmaz turizm və rekreasiya zonası;*
- *Quba rayonunun 3729,43 hektar inzibati ərazisində Quba turizm və rekreasiya zonası;*
- *Qusar rayonunun 14546,55 hektar inzibati ərazisində isə Qusar turizm və rekreasiya zonası yaradılması qərara alınıb.*

Bu qərarın ardınca 2016-cı il sentyabrın 1-də isə ölkə prezidenti "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalamışdır. Sərəncama əsasən, ölkədə Turizm Şurası yaradılıb. Şuranın məqsədi ölkədə turizm sahəsində mövcud vəziyyəti təhlil etməkdən, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsindən, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir. Şura Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının 2016–2017-ci illər üzrə fəaliyyət planını hazırlamalı, zəruri maliyyələşməni təmin etməli, yerli icra hakimiyyəti orqanları ilə birlikdə ölkənin turizm potensialı olan ərazilərində dövlət-sahibkar tərəfdaşlığı əsasında turizm və rekreasiya zonalarının yaradılması barədə təkliflərini hazırlayıb altı ay müddətində Nazirlər Kabinetinə göndərməli, Xızı-

Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının Baş inkişaf planlarını hazırlayıb təsdiq etməklə yanaşı onların pasportlarının dövlət qeydiyyatına alınmasına nail olmalıdır.

**6) Regional inkişaf mərkəzləri vasitəsilə bölgələrdə tarazlı sosial-iqtisadi inkişafın təmin edilməsi stimullaşdırılmalı, bu yolla regional bərabərsizlik azaldılmalı iqtisadi resursların əsasən mərkəzi şəhərlərdə təmərküzləşməsi səngidilməlidir.**

Konsepsiayada nəzərdə tutulmasına baxmayaraq başqa rəsmi sənəd, strategiya və qanunvericilik aktlarında regional inkişaf mərkəzlərinin formalaşdırılması, bu mərkəzlərin inkişafına yönəlik dövlət siyasəti, dəstək tədbirləri barədə müfəssəl yanaşma ortaya qoyulmayıb. Lakin bir sıra iqtisadi tədbirlətin həyata keçirilməsi ilə hökumətin əsas regional mərkəzlər olaraq hansı şəhərləri perspektivdə regional inkişaf mərkəzlərinə çevirməyi hədəfə alıdığını müşhidə edtmək mümkündür. Məsələn, yaxın ətrafındakı xammal bazısını və təbii resursları nəzərə alaraq Gəncə şəhərini metallurgiya və maşınqayırma sənayesinin bazasında ölkənin Qərb regionun başlıca iqtisadi mərkəzinə çevrilməsi istiqamətində addımlar atılıb. Məsələn, Polad İstehsalı Kompleksinin yaradılması ilə bağlı 23 aprel 2013-cü il tarixli Ölkə prezident sərəncamında bilvasitə göstərlir ki, bu kompleks Gəncə şəhəri və Daşkəsən rayonu ərazilərində dəmir filizinin hasilatı və emalının bazasında formalaşdırılsın. Qərb regionunda rekreasiya və turizm potensialı olan Naftalan şəhərinin də regional inkişaf mərkəzlərindən biri kimi inkişaf etdirilməsi təşəbbüsləri var. Bir müddət öncə Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə şəhərin ətrafındakı meşə fondu torpaqlarının 85 hektarının təyinatınnın dəyişdirilərək yaşayış fondu torpağına çevrilməsi və bunun hesabına şəhərin məskunlaşma potensialının daha da genişləndirilməsi də həmin məqsədə xidmət edir. Əlavə olaraq, şəhərin inkişafının sürətləndirilməsi məqsədilə qısa müddətdə Naftalan Şəhərinin 2033-cü ilədək olan dövr üzrə baş Planı hazırlandı və Nazirlər Kabinetinin 4 noyabr 2015-ci il tarixli 355 saylı qərarı ilə təsdiqləndi.

Naxçıvan iqtisadi regionunda əsas mərkəz kimi Naxçıvan şəhərinin inkişafına xüsusi diqqət yetirilir. Son illər Naxçıvan şəhərində maşınqayırma, qida, tikinti, yüngül sənayeyə bağlı bir neçə müəssisənin yaradılması şəhərdə məskunlaşmaya marağı xeyli artırıb. Son 20 ildə şəhər əhalisinin sayı 45%-dən çox artaraq 63 min nəfərdən 92 min nəfərə çatıb

Aran iqtisadi rayonunda bir neçə mərkəzə diqqət yönəldilib. Şirvan şəhəri ənəəvi olaraq neft-qaz, energetika sənayesi üzrə ixtisaslaşmışdı, son illər isə hərbi və qida sənayesi ilə bağlı müəssisələr yaradılıb. Mingəçevir şəhəri ənənəvi olaraq energetika, şüşə-lif sənayesi üzrə ixtisaslaşmışdı. Son illərdə hökumət yüksək texnoloji məhsullar (kömpüter istehsalı) və yüngül sənayenin (tikiş-toxuculuq) inkişafına diqqət artıb. Aran regionunda əlavə olaraq Yevlax şəhərinin inkişafına böyük sərmayələr qoyulub, regional əsaslarla yaradılan bir sıra dövlət orqanların fəaliyyəti bu şəhərə keçirilib və faktiki olaraq Yevlax şəhəri ətraf rayonlar üçün administrativ mərkəz rolu oynamağa başlayıb.

Hazırda administrativ mətkəz statusunu Şimal regionunda Xaçmaz, Şimal-Qərb regionunda Şəki və Qəbələ, Cənub regionunda Lənkəran, Şirvan regionunda isə Şamaxı və İsmayıllı şəhərləri oynayır. Bu şəhərlərdə əhalinin sayının sürətlə artması da onların regional iqtisadi mərkəzləri kimi cazibəsinin artdığını göstərir. Məsələn, hazırda Yevlax rayonu üzrə bütün əhalinin 54%-i Yevlax şəhərində, Şamaxı rayonu üzrə bütün əhalinin 47%-i Şamaxı şəhərində, Lənkəran rayonu üzrə əhalinin 40%-i Lənkəran şəhərində, Xaçmaz rayonu üzrə əhalinin 39%-i Xaçmaz şəhərində, Şəki əhalisinin 37%-i Şəki şəhərində məskunlaşıb. Halbuki ölkənin bir sıra rayon məkəzlərində (məsələn, Tovuz, Balakən, Zərdab, Ucar, Yardımlı, Lerik və s.) rayon əhalisinin 10-20%-i yaşayır.

Azərbaycan hökumətinin şəhər inkişafına dair spesifik proqram və strategiyasının yoxluğu regional inkişaf mərkəzləri ilə bağlı hökumətin dəqiq hədəflərini izləməyə və qiymətləndirməyə imkan vermir.

## 3. REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİ ÜÇÜN NORMATİV-HÜQUQİ BAZANIN YARADILMASI

2013-2016-ci illərdə bilavasitə və dolayısı ilə bölgə inkişafına bağlı olan, bölgə iqtisaduyyatının rəqabətqabiliyyətliliyinin gücləndirilməsinə, regional inkişafda iqtisadi fərqlərin azaldılmasına səbəb ola biləcək, bölgə iqtisadiyyatı ilə bağlı dövlət tənzimlənməsinin səmərəliliyinin artrılımasına yönəlmiş bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Həmin aktlardan ən mühüm olanları aşağıdakılardan ibarətdir:

- **2013-cü il yanvarın 1-dən etibarən sənaye və texnologiya parklarının fəaliyyəti ilə bağlı Vergi Məcəlləsinə dəyişkliklər qüvvəyə minib.** Həmin dəyişikliklərə əsasən, bu qəbildən olan parklar 7 il müddətinə mənfəət, torpaq, əmlak vergisindən, idxal edilən texnika (həmiçinin quğrular) və texnoloji avadanlıqlar idxal ƏDV-dən azad edilmişdi.
- **Ölkə prezidentinin 24 aprel 2014-cü il tarixli fərmanı "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiqlənib.** Sənəd dövlət tərəfindən sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir. Əsasnaməyə görə, sənaye parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Parkın idarəedici təşkilatı sənaye parkının fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən dövlətə məxsus hüquqi şəxsdir.

- **Ölkə prezidentinin 15 may 2014-cü il tarixli fərmanı "Texnologiya parkları haqqında Nümunəvi Əsasnamə" təsdiqlənib.** Sənəd dövlət tərəfindən texnologiya parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir. Əsasnaməyə görə, texnologiyalar parkı innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazidir. Parkın idarəedici təşkilatı texnoparkın fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsi;
- **Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı.** Bu sənəd ölkə prezidentinin 27 fevral 2014-cü il tarixli fərmanı ilə təsdiqlənib.
- **Nazirlər Kabinetinin 12 yanvar 2015-cı il tarixli, 7 saylı qərarı ilə Şəki şəhərinin 2030-cu ilə qədərki dövrdə inkişafına dair Baş Planı təsdiqlənib.** 10-yaxın regional şəhərin Baş Planlarının hazırlanması üzərində isə hazırda iş gedir.
- **Nazirlər Kabinetinin 13 may 2015-cı il tarixli, 186 saylı qərarı ilə "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"i təsdiqlənib.** Sənəd sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidə sənaye məhəllələrinin dövlət tərəfindən yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir. Belə məhəllələrin təşkili, idarə olunması və inkişafı dövlət adından təyin edilən idarəedici təşkilat tərəfindən həyata keçirilir. İdarəedici təşkilat sənaye məhəlləsinin fəaliyyətinə görə cavabdehdir və sənaye məhəlləsinin iştirakçısı kimi fəaliyyət göstərə bilməz. İdarəedici təşkilat Sənaye məhəlləsinin fəaliyyətinin təşkili məqsədi ilə məhəllə üçün ayrılmış torpaq sahəsi istifadəyə yararlı vəziyyətə gətirilir, infrastrukturunu qurur, məsləhət, treninq, peşə hazırlığı və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsinu təmin edir.
- **Nazirlər Kabinetinin 04 noyabr 2015-cı il tarixli, 355 saylı qərarı ilə Naftalan şəhərinin 2033-cü ilə qədərki dövrdə inkişafına dair Baş Planı təsdiqlənib.**
- **Ölkə prezidentinin 16 mart 2016-cı il tarixli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiqlənib.** Sənəd iqtisadiyyatın 8 prioritet sektorunu müəyyən edir ki, bundan da neft-qaz sektoru istisna olmaqla yerdə qalan 7 sektorun (kənd təsərrüfatı, yüngül sənaye, maşınqayırma, turizm, logistka, peşə təlimi, güzəştli mənzil tikintisi) hamısı bilavasitə regioanal inkişaf üçün üstün istiqamətlərdir.
- **"Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanun.** 14 iyun 2016-cı ildən qüvvəyə minən qanun kənd təsərrüfatı kooperasiyasının formalaşmasının və inkişafının, kənd təsərrüfatı kooperativlərinin təşkilinin və fəaliyyətinin hüquqi

və iqtisadi əsaslarını müəyyən edir. Kənd təsərrüfatı kooperativi kənd təsərrüfatı məhsulları istehsalçılarının birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub, iştirakçılarının maddi və sosial tələbatlarının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədi ilə yaradılan hüquqi şəxsdir.

- **Nazirlər Kabinetinin 01 avqust 2016-cı il tarixli, 286 saylı qərarı ilə Xızı-Xaçmaz, Quba, Qusar turizm və rekreasiya zonaları yaradılıb, onların xəritəsi təsdiqlənib.** Sənədə əsasən, göstərilən ərazilərdə turizm və rekreasiya zonalarının hüduqları ümumilikdə 97.2 min hektar ərazini əhatə edir.
- **Ölkə prezidentinin 15 sentyabr 2016-cı il tarixli sərəncamı ilə ipəkçiliyin inkişafına dövlət dəstəyini gücləndirmək məqsədilə barama istehsalı ilə məşğul olan şəxslərə barama istehsalı üçün dövlət büdcəsindən subsidiya verilməsi nəzərdə tutulub.** Sərəncama əsasən, subsidiya barama emalı və ipək istehsalı müəssisələrinin qəbul etdiyi yaş baramanın hər kiloqramına görə ödənəcək və Nazirlər Kabineti iki ay müddətində subsidiyanın məbləğini və verilmə qaydasını təsdiq etməlidir.
- **Ölkə prezidentinin 22 sentyabr 2016-cı il tarixli sərəncamı ilə pambıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi məqsədi ilə sərəncam imzalanıb.** Sərəncama əsasən, fermerlərə emal müəssisələrinə satılmış hər kiloqram xam pambığa görə 0,1 manat subsidiya ödənilməsinə başlandı;
- **Nazirlər Kabinetinin 27 sentyabr 2016-cı il tarixli, 370 saylı qərarı ilə "Birgə texnologiyalar parkının fəaliyyətinin təşkili və idarə olunması Qaydası" təsdiq edilib.** Qaydalar özəl və xarici investisiyaları innovasiya və yüksək texnologiyalar sahəsinə cəlb etməklə, texnoparkın qurulmasına nail olmaq üçün dövlət, bələdiyyə və ya xüsusi mülkiyyətdə olan torpaqlarda investorla birgə texnopark yaradılması üçün hüquqi imkanları və mexanizmləri nəzərdə tutur. Yəni, bu hüquqi aktdan və "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"dən çıxış edərək investorlar dövlət-özəl sektor əməkdaşlığı əsasında regionlarda ortaq texnologiya (innovasiya və yüksək texnologiyalar) parkları yarada bilərlər. Birgə texnoparkın fəaliyyətinin təşkili məqsədi ilə onlar üçün ayrılmış ərazi istifadəyə yararlı vəziyyətə gətirilməli, birgə texnoparkın infrastrukturu, inkubator və texnologiya transferi mərkəzi yaradılmalıdır;
- **Ölkə prezidentinin 5 oktyabr 2016-cı il tarixli sərəncamı ilə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirmək məqsədilə istehsalçılara dövlət büdcəsindən subsidiya verilməsi nəzərdə tutulub.** Sərəncama əsasən, subsidiya tütün emalı müəssisələrinə satılmış tütünün hər kiloqramına görə 0.05 manat ödənəcək.
- **Nazirlər Kabinetinin 06 oktyabr 2016-cı il tarixli, 401 saylı qərarı ilə "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası" təsdiqlənib.** Sənəd qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi qaydasını tənzimləyir. İxrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac

olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3 (üç) faizini təşkil edir. İxrac təşviqi tətbiq edilən məhsul qruplarına təbii bal, qurudulmuş meyvələr, nar və xurma kimi meyvələr, meyvə şirələri, meyvə-tərəvəz konservləri, ipək parçalar, pambıq ipliyindən hazırlanmış geyim əşyaları, toxunma xalçalar daxildir. Qaydaya əsasən, məhsulun növündən asılı olaraq baza məbləğlərə əmsallar tətbiq edilr.Məsələn, meyvələrə 1.0, qurudulmuş meyvələrə 1.5, meyvə şirələrinə 2.0 əmsalı tətbiq olunur.

# 4. TƏDQİQATIN ƏSAS NƏTİCƏLƏRİ, TƏKLİF VƏ TÖVSİYYƏLƏR

Regional inkişafla bağlı statistik məlumatların, dövlət proqramlarının və onların icrasına dair hesabatların, həmçinin bölgə inkişafı ilə bağlı normativ-hüquqi sənədlərin analizi əsasında "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında regionların tarazlı inkişafı ilə bağlı nəzərdə tutulan hədəfə yönəlik addımların aralıq nəticələrini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

- **Yerli səviyyədə həyata keçirilən bisnes inevestisiyalarının əsasən hökumətin regional iqtisadi inkişaf prioritetlərinə uyğunluğunun təmin edilməsi diqqətdə saxlanır. Hökumət aqarar sektoru, emal sənayesi və turizmi regionlarda üstün inkişaf etdirilən sektorlar kimi müəyyən edib, özəl biznesin də bölgələrdə sərmayə qoyduğu aparıcı sektorlar məhz bu istiqamətlərdir;**
- **Regionlarda infrastrukturun inkişafının təmin edilməsi, xüsusilə də əyalətlərin içməli su və təbii qazala təminatı, yol və elektrik enerjisi infrastrukturunun yenidən qurulması, suvarma suyu ilə təchizatının yaxşılıaşdırılması istiqamətində həm büdcə vəsaitləri, həm də beynəlxalq maliyyə qurumlarının kreditləri hesabına müxtəlif layihələr həyata keçirilib;**
- **Regionlar arasında sosial-iqtisadi fərqlərinin azaldılması ilə bağlı göstəricilərdə, xüsusilə də əmtəə dövriyyəsinin, məcmu məhsul buraxılışının və sərmayələrin adambaşına həcmində ciddi azalma müşahidə edilməyib;**
- **Ötən dövrdə yerli özünüidarənin regionların sosial-iqtisadi inkişafında rolunun gücləndirilməsi, xüsusilə də bu təsisatların administrativ potensialının, səlahiyyət dairəsinin genişləndirilməsi, maliyyə potensialının gücləndirilməsi istiqamətində islahatlara start verilməyib;**
- **Xüsusi turizm və rekreasiya zonalarının, həmçinin ərazi klasterlərinin yaradılması ilə bağlı hökumət tərəfindən bir neçə qərar qəbul edilib;**

Qeyd olunan nəticələr onu söyləməyə əsas verir ki, "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında nəzərdə tutulan bölgə inkişafı hədəflərinə çatmaq üçün aşağıdakı addımların atılması məqsədəuyğun olardı:

1) ***Bölgələrin rəqabət qabliyyətliliyini müəyyən etmək üçün mexanizmlər hazırlanmalıdır***. Bölgələlərin rəqabət potensialının qiymətləndirilməsi üçün əsas üçün indikatorlar kimi "insan kapitalı və həyat keyfiyyəti", "brendinq potensialı və innovativlik", "istehsal potensialı və ticarət imkanları" və "baza xidmətlərə əlçatanlıq" kimi rəqabət gücünü ölçməyə imkan verən indikatorlardan istifadə edilməlidir. **Bu göstəricilərin tam siyahısı Qiymətləndirmə Hesabatına Əlavə 6-da təqdim edilir**;

2) ***Regional sosial-iqtisadi problemlərin həllində bələdiyyələrin iştirakını atırmaq üçün onlaırn administrativ və maliyyə potensialının gücləndirilməsi vacibdir.*** Xüsusilə də kənd ərazilərində yol və içməli su infrastukturunun qurulmasında və saxlanmasında, ərazilərin məişət tullantılarından təmizlənməsində və abadlaşdırılmasında, yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsində, yerli əhəmiyyətli suvarma sistemlərinin təşkilində bələdiyyələrə müstəsna səlahiyyətlər ayrılmalı, bu səlahiyyətlərin icrası ehtiyac duyulan maliyyə ilə təmin edilməlidir;

3) ***Hökumətin regional inkişaf proqramlarının yekunlarını və effektivliyini qiymətləndirmək üçün nətica indikatorları müəyyən etməsi məqsədəuyğundur***. Hökumətin regionların inkişafı ilə bağlı illik və yekun hesabatları mövcud vəziyyətlə hədəf göstəriciləri arasında fərqin necə dəyişdiyini əks etdirməlidir.

4) ***Azərbaycanda regional inkişafın institusionanal potensialının təkmilləşdirilməsi vacibdir.*** Söhbət regional inkişafa məsul ayrıca mərkəzi hakimiyyət orqanı yaradılmasından gedir. Bu, ayrıca nazirlik və ya ölkə prezidenti yanında Agentlik formasında da ola bilər. Konsepsiayada nəzərdə tutulan hədəflərə çatmaq, regional iqtisadi inkişaf siyasətinin effektivliyini və nəticəliliyini artırmaq üçün beynəlxalq təcrübədə istifadə edilən institusional mexanizmlərədən və islahat tədbirlərindən yararlanmaq mümkündür. **Bu sahədə faydalı ola biləcək bəzi təcrübələr Qiymətləndirmə Hesabatına Əlavə 7-də təqdim edilir**;

5) ***İqtisadi baxımdan problemli regionların və əlverişsiz coğrafi şəraitə malik bölgələrin üstün inkişaf etdirilən regionlar kimi qəbul edilməsi üçün meyar və prinsiplər hazırlanması vacibdir.*** Regional inkişaf proqramlarınnda bu bölgələrə münasiətdə differnesial təşviq mexanizmləri, vergi və investisiya siyasəti təklif edilə bilər;

6) ***Azərbaycanda hər bir iqtisadi rayon üzrə məxsusi inkişaf proqram hazırlanması, kənd inkişafı üzrə Milli Strategiyanın işlənməsi təcrübəsindən istifadə edilməsi məqsədəuyğundur.*** Ayrıca işlənmiş yerli inkişaf proqramlarında hər bir regionun spesifikası, imkanları və problemləri daha dərindən analiz edilməklə uyğun çıxış yolları təklif edilə bilər.

7) ***Regional klasterlərin yaradılması ilə bağlı aydın yanaşmalar işlənməlidir.*** Hər bir ixtisaslaşmış parkın, turizm zonasının yaradılması ilə bağlı qərar elan olunmazdan öncə bu təsisatların yaradılması üzrə GZİT analizlər və master-

planlar hazırlanmalı, bu sənədlər ictimai müzakirə məqsədilə online qaydada ictimailəşdirilməlidir.

8) **Paytaxtla regionlar arasında sosial-iqtisadi inkişaf fərqlərinin hansı həddinin məqsədəuyğun olması bəyan edilməlidir.** Çünki aydın məsələdir ki, regionalar fərqli imkanlara və şəraitə malik oduğundan onlar arasnda fərqləri sonadək aradan qaldırmaq real görünmür. Hazırda adambaşına ÜDM həcminə, büdcə gəlirlərinin səviyyəsinə, investisiyaların həcminə görə bu fərq 10-15 dəfə intervalındadır. Lakin bu fərqlər təkcə paytaxtla bölgələr arasında deyil, bölgələrin öz aralarında da müşahidə edilir. Regional inkişaf proqramlarında bu fərqlərin azaldılmasını ölçməyə imkan verən hədəf göstəricilərinin və nəticə indikatorlarının olması vacibdir;

9) **Bütün bölgələr üzrə əhatəli, etibarlı və hamı üçün əlçatan statistikanın formalaşdırıması çox mühümdür.** Xüsəsən də regionlar üzrə işsizliyin real səviyyəsi, məşğul əhalinin sahələr üzrə bölgüsü, yoxsulluğun real səviyyəsi, kommunal xidmətlərlə təchizatın real əhatə dairəsi barədə rəsmi statistik məlumat bazası formalaşdırılımalıdır. ;

10) **Azərbaycanda sosial-iqtisadi inkişafda kəskin gerilik müşahidə olunan, yaxud əlverişsiz coğrafi mövqeyinə görə müntəzəm olaraq daha kəskin iqtisadi problemlərlə üzləşən regionların üstün inkişaf etdirilməsi yaxud təşviqi ilə bağlı siyastə mexanizmləri və alətləri, belə regionları müəyyən etmək üçün meyarlar mövcud deyil;**

11) **Azərbaycanda hər bir region üzrə spesifik coğrafi şəraiti və iqtisadi xüsusiyyətləri nəzərə almaqla proqram və strategiyalar, eyni zamanda kənd inkişafına yönəlik məxsusi proqramlar reallaşdırmaq təcrübəsi yoxdu;**

12) **Azərbaycanda regional inkişafın institusional çərçivələri, prosesin aktyorlarının sayı xeyli məhduddur. Bu məhdudluq özünü ilk növədə onda göstərir ki, bir sıra dünya ölkələri ilə müqayisədə tənzimləmə və siyasət fokusu bilavasitə regional inkişaf olan ayrıca mərkəzi icra hakimiyyəti orqanı (Regional İnkişaf Nazirliyi), bölgə inkiaşını dəstəkləyən regional inkişaf agentlikləri və ya fondları, geniş iqtisadi və administrativ muxtariyyətə malik yerli özünüidarə orqanları yoxdur.**

13) **Azərbaycanda regionların rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi və regional inkişaf siyasəti hazırlanarkən bu qiymətləndirmənin nəticələrinin nəzərə alınması mexanizmləri mövcud deyil;**

14) **Regional inkişafda klaster yanaşması tətbiq ediılməyə başlasa da, bu mexanizmin tətbiqinin nəticələrini əsaslandıran hər hansı rəsmi açıqlama əlçatan deyil.**

**Ölkənin iqtisadi rayonları üzrə adambaşına**
**ümumi məhsul buraxılışının həcmi,** ***manatla***

| | 2012 | 2015 |
|---|---|---|
| Bakı şəhəri | 19888.3 | 17849.4 |
| Naxçıvan iqtisadi rayonu | 6336.4 | 6842.6 |
| Abşeron iqtisadi rayonu | 2255.6 | 2694.0 |
| Aran iqtisadi rayonu | 2309.9 | 2528.6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2595.3 | 2338.8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 2109.6 | 2199.6 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1794.5 | 1952.3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 2529.1 | 1884.3 |
| Lənkəran iqtisadi rayonu | 1302.8 | 1632.1 |

**İnzibati ərazilər üzrə adambaşına ümumi məhsul buraxılışı, manatla**

***(ən yüksək və ən aşağı göstərciyə malik 10 rayon)***

| | 2012 | 2015 |
|---|---|---|
| *Naxçıvan MR* | *6336.4* | *6842.6* |
| *Xızı* | *3224.2* | *5016.7* |
| *Mingəçevir* | *3456.4* | *4594.1* |
| *Şırvan* | *4392.2* | *4237.4* |
| *Siyəzən* | *2489.8* | *3601.8* |
| *Şabran* | *5236.2* | *3456.7* |
| *Ağdaş* | *2603.9* | *3170.3* |
| *Hacıqabul* | *3808.2* | *3058.6* |
| *Kürdəmir* | *3045.0* | *3020.9* |
| *Abşeron* | *2499.8* | *2922.9* |
| *Astara* | *1336.3* | *1693.4* |
| *Qax* | *2571.0* | *1669.6* |
| *Masallı* | *1230.6* | *1598.9* |
| *Tərtər* | *1393.9* | *1591.3* |
| *Lənkəran* | *1514.3* | *1585.6* |
| *Zərdab* | *1769.7* | *1532.0* |
| *Ağstafa* | *1380.8* | *1430.7* |
| *Balakən* | *1624.6* | *1416.0* |
| *Lerik* | *1060.8* | *970.6* |
| *Yardımlı* | *812.5* | *949.5* |

*Əlavə 3*

**Regionlar üzrə əsas kapitala investisiyalar, 2013-2015-ci illər**

| | **2013** | **2014** | **2015** | **2013-2015-ci illər üzrə cəmi** |
|---|---|---|---|---|
| Bakı şəhəri | 10 744 105,0 | 11 853 003,0 | 11 457 267,3 | 34 054 400 |
| Abşeron iqtisadi rayonu-cəmi | 581 529,7 | 553,132.0 | 391,014.3 | 1525676.0 |
| Gəncə-Qazax iqtisadi rayonu | 946 551,6 | 816,498.4 | 654,449.7 | 2 418 500.7 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 653 759,6 | 227,259.8 | 214,808.8 | 1095828.2 |
| Lənkəran iqtisadi rayonu | 286 427,2 | 318,333.3 | 340,834.1 | 945594.6 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 487 740,6 | 368,760.3 | 269,766.0 | 1126266.9 |
| Aran iqtisadi rayonu-cəmi | 1 498 170,9 | 1,150,465.5 | 1,106,503.0 | 3755139.4 |
| Yuxarı-Qarabağ iqtisadi rayonu | 57 094,2 | 97,836.8 | 29695.3 | 196871.6 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | 152 516,4 | 171,598.1 | 152,013.1 | 476127.6 |
| Naxçıvan iqtisadi rayonu | 1 037 748,4 | 924,628.6 | 951,196.5 | 2 913 570.0 |
| Cəmi ölkə üzrə | 16 444 643.6 | 15 928 430.0 | 15 580 250.0 | 47 953 324.0 |

**Əhalinin hər nəfəri hesabı ilə regionlar üzrə əsas kapitala investisiyaların məbləği**

| **İnzibati ərazilər** | **2013-2015-ci illərdə ölkənin və rayon şəhərlərinə qoyulmuş investisiyaların adambaşına məbləği, manatla** |
|---|---|
| Xızı rayonu | 6650 |
| Naxçıvan MR | 6620 |
| Şabran rayonu | 4845 |
| Abşeron rayonu | 4660 |
| Qusar rayonu | 4400 |
| Ucar rayonu | 4060 |
| Siyəzən rayonu | 3950 |
| Qəbələ rayonu | 3700 |
| Ağdaş rayonu | 3500 |
| Mingəçevir şəhəri | 3350 |
| *Zərdab rayonu* | 950 |
| *Neftçala rayonu* | 920 |
| *Gədəbəy rayonu* | 900 |
| *Yardımlı rayonu* | 900 |
| *Ağcabədi rayonu* | 890 |
| *Tovuz rayonu* | 860 |
| *Lerik rayonu* | 600 |
| *Xaçmaz rayonu* | 570 |
| *Tərtər rayonu* | 550 |
| *Samux rayonu* | 520 |
| **Cəmi ölkə üzrə** | **5000** |

*Əlavə 5*

**Adambaşına yerli gəlirlər, 2015**

| **Şəhər və rayonların adı** | **Yerli gəlirlərin adambaşına məbləği, manatla** |
|---|---|
| Naftalan | 326.0 |
| Mingəçevir | 321.0 |
| Sumqayıt | 255.0 |
| Şirvan | 210.0 |
| Abşeron | 177.0 |
| İmişli | 169.0 |
| Xaçmaz | 132.0 |
| Qəbələ | 127.0 |
| Gəncə | 125.0 |
| Yevlax | 119.0 |
| Balakən | 52.0 |
| Ağsu | 47.0 |
| Goranboy | 47.0 |
| Tərtər | 47.0 |
| Gədəbəy | 46.0 |
| Masallı | 41.0 |
| Cəlilabad | 36.0 |
| Yardımlı | 34.0 |
| Lerik | 28.0 |
| Tovuz | 27.0 |

*Əlavə 6*

**Regionların rəqabət qabiliyyətliliyini qiymətləndirmək üçün istifadə edilə biləcək indikatorlar**

**1. Insan kapitalı və həyat keyfiyyəti**

*1.1. Əhalinin hər 10 000 nəfərinə düşən ali təhsil müəssisələrində oxuyan tələbə sayı*

*1.2. Əhalinin hər 10 000 nəfəri hesabı ali təhsil müəssisələrinə daxil olan abituryentlərin sayı*

*1.3. Əhalinin hər 10 000 nəfəri hesabı ilə ali təhsil müəssisələrini bitirən məzunların sayı*

*1.4. Əhalinin hər 10 000 nəfəri tibb ixtisaslarından məzun olanların sayı*

*1.5. Əhalinin hər 10 000 nəfəri hesabı ilə peşə-ixtisas məktəblərindən məzun olanların sayı*

*1.6. Əhalinin hər 10 000 nəfərinə düşən həkimlərin sayı*

*1.7. Əhalinin hər 10 000 xəstəxana çarpayısı sayı*

*1.8. Əhalinin hər 1000 nəfərinə düşən minik avtomobili sayı*

*1.9. Əhalinin hər nəfərinə düşən bank depozitlərinin məbləği*

*1.10. Hər 100 şagirdə düşən sinif otaqlarının sayı*

*1.11. Hər müəllimə düşən şagirdlərin sayı*

*1.12. Əhalinin hər 10 000 nəfəri hesabı ilə cəza evində olan məhbusların sayı*

*1.13. Əhalinin hər nəfəri hesabı ilə elektrik enerjisi istehlakı*

*1.14. Əhalinin hər 1000 nəfərinə düşən ticarət sahəsinin həcmi*

*1.15. 5 ulduzlu otellərin yataq tutumu*

*1.16. Şəhərləşmə səviyyəsi*

**2. Brendinq və innovasiya**

*2.1. İl ərzində milyon dollardan çox ixracatı olan müəssisələrin sayı*

*2.2. İSO 500 Böyük Sənaye Təşkilatının reytinqinə daxil olan müəssisələrin sayı*

*2.3. Son ildə qeydiyyata alınan patentlərin sayı*

*2.4. Son 5 ildə qeydiyyata alınan məhsul markalarının sayı*

**3. Iqtisadi potensial**

*3.1. Büdcəyə alınan vergi məbləği*

*3.2. İxracın həcmi*

*3.3. Sənayenin istehlak etdiyi elektrik enerjisinin miqdarı*

*3.4. Əvvəlki illə müqayisədə və faktiki fəaliyyət göstrən şirkətlərin say dinamikası*

*3.5. Əvvəlki illə müqayisədə bağlanan şirkətlərin say dinamikası*

*3.6. Regiona qoyulan ictimai investisiyaların həcmi və artım dinamikası*

*3.7. Xarici ticarət aparan firmaların sayı*

*3.8. Əsas kapitala investisiyaların həcmi*

*3.9. Daxil tələb potensialı (əhalinin ölkə əhalisinə nisbəti)*

**4. Baza xidmətlərinə əlçatanlıq**

*4.1 Genişzolaqlı internetlə əhatə səviyyəsi*

*4.2. Hər 100 ev təsərrüfatəna düşən ev telfonlarının sayı*

*4.3. Regionun mərkəzi magistral yollara bağlı olması*

*4.4. Ərazinin hər kvadratkm-ə düşən yol*

*4.5. Regionun dəmir yoluna bağlılığı*

*4.6. Hər km-ə düşən maşın sayı*

*4.7. Ev təsərrüfatlarının mərkəzləşmiş su təminatı səviyyəsi*

*4.8. Ev təsərrüfatlarının təbii qazla təminat səviyyəsi*

**Regional iqtisadi inkişaf siyasətinin effektivliyini və nəticəliliyini yüksəltmək üçün beynəlxalq təcrübələr**

*(i) "Regional inkişaf" anlayışına yanaşma və regional inkişafı ölçmək üçün vasitələ*

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) yanaşmasına görə də "regional inkişaf" geniş anlayış olsa da, bunu ilk öncə bölgələrarası fərqlərin azaldılmasına nail olmaq səyləri kimi qəbul etmək lazımdır. Bir neçə il əvvələdək "regional inkişaf" dedikdə əsasən böyük həcmdə sərmayələr hesabına irimiqyaslı infarstrukturun yaradılması alaşılırdı. Lakin köhnə yanaşma regional bərabərsizliyi aradan qaldırmaqda uğursuzluğa düçar oldu, iqtisadi baxımdan geri qalan regioanlarda hədəflənən inkişafın əldə edilməsi ilə nəticələnmədi – baxmayaraq ki, ictimai fondlar vasitəsilə bu məqsədə böyük böyük vəsaitlər xərclənirdi[7].

OECD ekspertləri vurğulayır ki, regional inkişaf siyasətinin 2 məqsədi olmalıdır və hazırlanan regional inkişaf strategiyaları bilavasitə bu məqsədlər üzərindən formalaşdırılmalıdır.: 1) iqtisadi inkişaf üçün coğrafi məkan rolunu oynayan regionların rəqabət qabiliyyətliliyinin təmin edilməsi; 1) bütün regionlar, həmçinin regionlar daxilində müxtəlif ərazilər üzrə baza əmtəə və xidmətlərə bütün əhalinin bərabər çıxışının təmin olunması[8].

Bu baxımdan Azərbaycanda qəbul edilən regional inkişaf proqramları elə nəticə indikatorları seçilə bilər ki, icra prosesi başa çatdıqdan sonra mövcud vəziyyət kimi qeydə alınmış göstəricilərin dinamikası necə dəyişməsini görmək mümkün olsun. Məsələn, proqramın icrasına start veriləndə Aran regionunda mərkəzləşmiş su təminatı ilə əhatə olunan ev təsərrüfatlarının, o cümlədən kənd yerləri üzrə ev təsərrüfatlarının ümumi təsərrüfatların hansı hissəsini təşkil edirdi, proqramın sonunda bu göstərici hansı səviyyədədi, Dağlıq Şirvan regionunda təmirə və yenidən qurmaya ehtyacı olan bələdiyyə yollarının və rayon (region) əhəmiyyətli yolların ümumi yollara nisbəti necədir, sonda bu rəqəm hansı səviyyəyə çatdı, Gəncə-Qazax regionunda adambaşına məhsul buraxılışı və əmtəə dövriyyəsinin həcmi ölkə üzrə orta göstəricinin və ən yüksək sayılan regional göstəricnin neçə faizinə bərabər idi, icranın sonunda hansı səviyyədədi, Lənkəran regionunda hər 100 ev təsərrüfatlarının genişzolaqlı internetlə çıxış hansı səviyyədə idi, sonda bu göstərici necə dəyişdi və s. Hazırkı regional inkişaf proqramları iqtisadi rayonlar üzrə bu cür hədəflər müəyyən etmir, icraya dair hesabatlarda da regionlararası fərqlərin necə azaldıldığını görmək mümkün deyil;

---

[7] http://www.oecd.org/gov/regional-policy/regionaldevelopment.htm

[8] **Governing Regional Development Policy. OECD 2009.** http://www.strategvest.ro/media/dms/file/Resurse/Governing%20Regional%20Development%20Policy_%20The%20Use%20of%20Performance%20Indicators%20(OECD%202009).PDF

*(ii)Regional inkişafda "rəqabətqabiliyyətli regionlar" anlayışı*

OECD ekspertlərinin yanaşmasına görə, bütün regionların milli iqtisadiyyata tam gücü ilə töhfə verə bilməsi üçün ilk növbədə regionların rəqabət üstünlüklərinin təmin edilməsi önəmlidir[9]. Qonşu Türkiyədə müəyyən müddətdən bir (təxminən 5 ildən bir) hökumətin sifarişi ilə müstəqil araşdırma institutları bölgələrin rəqabət qabiliyyətliliyi indeksini hazırlayır. Bu indeks əsasında ölgənin 81 regionun rəqabət potensialı arasında fərqləri aydın görmək olur. Hökumət məhz bu inedksdən çıxış edərək özünün bölgə inkişafı siyasətinə korreksiyalar edir. Bir sıra göstəricilər əsasında bölgələrin rəqabət gücü indeksi hesablanır və regionların reytinqi müəyyən edilir. Həmin göstəricilərə regional məhsulun adambaşına həcmi, əmək qabiliyyətli əhalinin ali təhsillə əhatə səviyyəsi, ixrac dövriyyəsi 1 milyon dolları ötən biznes subyektlərinin sayı və ümumi sahibkarlarn sayında xüsusi çəkisi, fond birjasında listinqə daxil olan şirkətlərin sayı, vergilərn həcmi, kreditlərin həcmi, xarici ticarət aparan şirkətlərin sayı, açılan və qapanan şirkətlərin sayı, alınan patentlərin sayı, ev təsərrüfatlarının genişzolaqlı internetlə əhatə səviyyəsi, hər 100 ailə hesabı ilə minik avtomobillərinin sayı, hər kvadratkilometrə düşən bərk asfalt örtüyü, uşaqların məktəbəqədər təhsillə əhatə səviyyəsi, sərmayələrin həcmi, İSO standartı ilə işləyən sənaye müəssisələrinin sayı, ölkənin İSO standartı ilə işləyən sanaye müəssisələrində bölgə müəssisələrinin payı kimi mühüm göstəricilər daxildir [10].

Azərbaycanın 2014-2018-ci illər üzrə regional inkişaf proqramında bölgələrdə rəqabət qabiliyyətli məhsul istehsalının vacibliyi vurğulanır, lakin bütövlükdə bölgə iqtisadiyyatının, coğrafi olaraq məskunlaşma ərazisi kimi regionun rəqabət qabiliyyətliyinin təmin edilməsi üçün zəruri mexanizmlərin tətbiqi hədəf olaraq qarşıya qoyulmur.

*(iii) Ayrıca götürülmüş bölgə və ərazilər üçün spesifik inkişaf planlarının hazırlanması*

Beynəlxalq təcrübədə adətən milli səviyyədə hökumətin regional inkişaf siyəsətinin çərçivələrini müəyyən edən inkişaf strategiyası hazırlanır, bu strategiyadan çıxış edərək hər bir iqtisadi rayon üzrə onların spesifik coğrafi və iqtisadi inkişaf xüsusiyyətləri, potensialı nəzərə alınmaqla bölgə iqtisadi inkişaf planları işlənir. Bu təcrübədən region ölkələrindən Türkiyə və Gürcüstan yararlanır. Məsələn, Türkiyənin "2014-2023-cü illər üzrə Milli Regional İnkişaf Strategiyası" adlı sənədində bu ərazilərin hər birinin spesifikası nəzərə alınaraq onların inkişafı ilə bağlı müxtəlif yanaşmalar və alətlər irəli sürülür[11]. Bu strategiyanı çərçivə sənədi kimi qəbul edən Bölgə İnkişaf Agentlikləri (Kalkınma Ajansları) hər bir bölgə üzrə ayrıca inkişaf planları hazırlayır və tətbiq edirlər. Bölgə inkişaf planları milli səviyyədə regionların inkişafı ilə bağlı nəzərdə tutulan siyasətlər, plan və strategiyalarla yerli səviyyədə həyata keçiriləcək fəaliyyətlər arasında əlaqəni müəyyən etməyə, yerli qurumlar arasında əməkdaşlığı, mərkəzi qurumlarla koordinasiyanı təmin etməyə, özəl sektorun və vətəndaş cəmiyyətinin

[9] http://www.oecd.org/gov/regional-policy/regionaldevelopment.htm
[10] http://edam.org.tr/document/trkiye%20icin%20bir%20rekabet%20endeksi.pdf
[11] http://www.bgus.gov.tr/dokuman/BolgeselGelismeUlusalStratejisi(2014-2023)Taslak.pdf

prosesə cəlb edilməsinə nail olmağa xidmət edir. Türkiyədə 81 region (İl) 26 Bölgədə birləşir və hazırda 26 Bölgə Planı icra edilir. Məsələn, Trakya Kalkınma Ajannsının Trakya bölgəsi üzrə hazırladığı bölgə planı həddən artıq əhatəli bir sənəddir[12]. Planda bölgənin coörafi vəziyyəti, iqtisadi potensialı, insan resursları, təbii imkanları nəzərə alınmaqla 10 illik inkişaf istiqamətləri müəyyən edilib. Bölgə planı regionun xarakteristikası və onun inkişafına təsir göstərən təməl mövzuların təqdimatı ilə başlanır. Miqrasiyanın idarə edilməsi, yerli qurumların iş bacarığı, ətraf mühit və su qaynaqları, bölgə daxilində inkişaf fərqləri, iri miqyaslı dövlət sərmayələri təməl mövzular olaraq göstərilir. Bölgənin inkişafı üçün əsas prioritetlər kimi insan və toplum inkişafı, ətraf mühit və yaşayış, istehsal və iqtisadiyyat, coğrafi məskunlaşma və inkişaf müəyyən edilib. Planın sonunda sənədin icracını qiymətləndirmək üçün naticə indikatorları göstərilib. Bölgə planının özü isə əhatəli işlənmiş bir sıra sənədlər əsasında formalaşdırılıb. Məsələn, Trakya turizm master planı, bölgənin social infrastruktunun analizinə dair hesabat, Trakya logistic master planı, bölgənin rəqabət qabiliyyətlilik analizi, miqrasiya analizi, sahibkarlığın durumunun analizi, fermerlərin durumuna dair araşdırma, enerji raporu Bölgə Planının hazırlanmasında istifadə edilən baza sənədlərdir.

Türkiyədə hökumət milli səviyyədə regional inkişaf strategiyası hazırlamaqla yanaşı kəndlərin inkişafına daha fokuslu siyasət formalaşdırmaq, səlahiyyətli dövlət qurumlarının kənd ərazilərinin inkişafı ilə bağlı daha öhdəliklərinin daha müfəssəl müəyyən edilməsi, bu öhdəliklərin icrası üçün çox dəqiq zaman çərçivələrinin bəlli edilməsi, qurumlar arasında koordinasiyanın dəqiqləşdirilməsi üçün ayrıca plan və proqramlar tərtib edirlər. Hazırda 2015-2018-ci il üçün kənd inkişafına dair Plan icra olunmaqdadır. Bu sənəddə kənd iqtisadiyyatının diversifikasiyası və kənd ərazilərində qeyri-aqrar sektorun inkişaf etdirilməsi, aqrar sektorun rəqabət qabiliyyətinin artırılması, torpaq və su resurslarından səmərəli istifadənin təmin olunması, kənd ərazilərində sosial və fiziki infrastrukturun inkişaf etdirilməsi, xüsusilə də də insan kapitalının gücləndirilməsi, yerli inkişafla bağlı qurumların ilik və bacarıqların gücləndirilməsi kimi dəqiq hədəflər müəyyən edilmişdir[13].

Son illər Gürcüstan da bölgələrin iqtisadi inkişafının hökumət tərəfindən proqramlaşdırılması sahəsində islahatlar aparılıb. Hökumət hazırda 2015-2017-ci illər üzrə regional inkişaf proqramını icra edir[14]. Bu proqram kifayət qədər əhatəli bir sənəddir və orda ölkənin regionlarında sosial, nəqliyyat və kommunal infrastruktura, həmçinin  sosial-iqtisadi vəziyyətə dair mövcud göstəricilər təqdim edilməklə yanaşı proqramın icrası nəticəsində əldə olunacaq hədəf göstəriciləri də əks olunub. Öz növbəsində, Proqramda Gürsüstanın regionlarının güclü və zəif tərəflərinin, imkan və risklərinin (GZİT) analizi əsasında bölgələri iqtisadi inkişafına dair prioritetlər, hökumətin baxışları təqdim edilib. Proqramım mətn sənədi ilə bağlı xeyli əlavələri də hazırlanıb və ictimaiyyətə açıqlanıb. Məsələn, proqram üzrə tədbirlər və onların icrası üçün tələb edilən maliyyə vəsaiti, proqramın icrası üçün monitorinq planı, Gürcüstanın

[12] http://www.trakyaka.org.tr/uploads/docs/862016kqfRQq.pdf
[13] http://www.resmigazete.gov.tr/eskiler/2016/06/20160601-10-1.pdf
[14] http://www.mrdi.gov.ge/en/news/rdevelopment/53d0e8a90cf23064fe48caaa

regionları arasında sosial-iqtisadi və infrasruktur təminatı ilə bağlı təminatın vəziyyətini əks etdirən analiz də sənədə qoşulan əlavərdir.

Əlavə olaraq, Gürcüstan 9 regiondan ibarətdir və hər bir regionunda özünün spesifik inkişaf strategiyası hazırlanıb və icra edilir[15]. Məsələn, Kaxeti bölgəsinin 2014-2021-ci illər üzrə regional inkişaf strategiyası hökumətin milli regional inkişaf proqramı həcmdə böyük və ahatəli sənəddir[16]. Bu sənəddə Kaxeti bölgəsinin sosial-iqtisadi durumu, infrastrukturunun vəziyyəti daha detallı əks etdirilir, bölgənin iqtisadi inkişaf potensialı və üstünlükləri göstərilməklə prioritet inkişaf istiqamətləri təqdim edilir. Strategiya sənədi bölgənin güclü və zəif tərəflərinin, imkan və risklərinin (GZİT) analizinə əsaslanır.

Türkiyədən fərqli olaraq hələlik Gürcüstanda hökumətin ayrıca kənd inkişafı proqramı yoxdur, lakin hazırda Avropa Birliyinin dəstəyi ilə "Gürcüstanın kənd inkişafı ilə bağlı Milli Strategiyası" adlı sənəd işlənib və müzakirə mərhələsindədir və yaxın zamanlarda təsdiq ediləcəyi gözlənir[17].

### *(iv) Regional inkişafa məsul ixtisaslaşmış institutlar*

Azərbaycanda bu sahə bilavasitə İqtisadi İnkişaf Nazirlyinin səlahiyyətinə aiddir. Bir sıra ölkələrdə regional inkişafa məsul olan ayrıca qurumlar fəaliyyət göstərir. Məsələn, Türkiyədə İqtisadiyyat Nazirliyi ümumi iqtisadi inkişaf məsələlərinə salahiyyətlidir[18]. Regionların inkişafı isə bilavasitə İnkişaf Nazirlyinin (Kalkınma Bakanlığı) səlahiyyətindədir[19]. Ümumiyyətlə Türkiyədə regional inkişafın menecmenti yüksək institusional potensiala malikdir və proses 3 səviyyədə həyata keçirilir: milli, bölgə və region səviyyəsində. Milli səviyyədə sahəyə məsul olan bir neçə ixtisaslaşmış və tam səlahiyyətləndirilmiş qurum var. Bura bilavasitə Baş Nazirliyin strukturuna daxil olan 3 məsul qrurum - Regional İnkişaf üzrə Ali Qurum, Regional İnkişaf Komitəsi və İnkişaf Nazirliyi aiddir. Birinci 2 təsisatın fəaliyyəti bilavasitə İnkişaf Nazirliyi tərəfindən yönləndirilir. Çünki ayrıca olaraq ümumi iqtisadi inkişafa məsul olan İqtisadiyyat Nazirliyi də mövcuddur. Regional İnkişaf üzrə Ali Qurumun yaradılmasının əsas məqsədi mərkəzi siyasətlər ilə regional inkişaf siyasəti arasında planlaşdırma, tətbiq və izləmə baxımından uyğunlaşma və əlaqələndiməni təmin etməkdir. Bu qurum Parlamentin regional inkişafa bağlı məsələlərdə yuxarı qərar orqanı funksiyasını yerinə yetirir. Regional İnkişaf üzrə Ali Qurum baş nazir, inkişaf naziri və baş nazirin təyin etdiyi digər şəxslərdən formalaşır. Bu qurumun səlahiyyətinə aid məsələ və mövzuları texniki səviyyədə müzakirə edib zəruri təkliflər hazırlamaq üçün Regional İnkişaf Komitəsi yaradılıb. Komitə Maliyyə və İnkişaf nazirliklərinin, həmçinin Xəzinə Müstəşarlığının məsləhətçilərindən formalaşdırılır. Zərurət yarandıqda komitənin müzakirələrinə QHT təmsilçilərinin də iştirakı təmin olunur.

---

[15] http://www.mrdi.gov.ge/en/news/rdevelopment/1
[16] http://static.mrdi.gov.ge/52f9bedc0cf298a857ab7d55.pdf
[17] http://enpard.ge/en/public-consultations-on-rural-development-national-strategy-of-georgia/
[18] http://www.ekonomi.gov.tr
[19] http://www.kalkinma.gov.tr/Pages/index.aspx#

Bölgə səviyyəsində əsas qurum Bölgə İnkişaf Agentlikləri (Kalkınma Ajansları) və Regional İnkişaf İdarələridir. Bu 2 təsisat ortaq layihələr həyata keçirir, fəaliyyətlərini tam koordinasiya edirlər. Regional İnkişaf İdarələrinin əsas funksiyası müxtəlif bölgə proqramlarının hazırlanması, həyata keçirilməsi və nəticələrin izlənilməsidir.

İnkişaf Agentlikləri isə regional inkişafa maraqlı olan bütün tərəflərin, ilk növbədə özəl sektorun prosesində iştirakını təmin edir, bisnesin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün təşəbbüslər hazırlayıb həyata keçirir. Agentliklərin nəzdində investisiyalara dəstək ofisləri yaradılıb, investorlara zəruri xidmətlər göstərilir. Türkiyədə bu təsisatların fəaliyyətini və statusunu tənzimlətən "İnkişaf agentliklərinin quruluşu, əlaqələndirilməsi və və vəzifələri haqqında" ayrıca Qanun qəbul edilib. Bu qanuna əsasən, ilk dəfə 2006-ci ildə 2 pilot agentlik yardılmışdı. Sonrakı dövrdə artıq bütün ölkə boyu 26 Regional İnkişaf Agentliyi yaradıldı. Kiçik və orta sahibkarlığın inkişafından tutmuş universitet-sənaye əməkdaşlığınən gücləndirilməsinə, elmi-tədqiqat və innovasiya fəaliyyətlərinin dəstəklənməsinə qədər bütün layihələrə agentlik fəal dəstək verir.

Türkiyədə region və yerli səviyyədə sosial-iqtisadi inkişaf məsələlərinə məsul olan yerli özünüidarə orqanlarıdır. Söhbət bilavsitə əhalinin səsi ilə formalaşan regional və yerli özünüidarə orqanlarından gedir. Hazırda Türkiyədə 81 yerli regional özünüidarəetmə (İl hakmiyyəti), 29 böyükşəhər bələdiyyəsi və 2950 bələdiyyə mğvcuddur. Bu təsisatlar hər biri öz səviyyəsində, qanunla müəyyən edilmiş səlahiyyətlər çərçivəsində regional inkişafın aparıcı aktyorlarından sayılır. Bu qurumlar iqtisadi və maliyyə muxtariyətinə malik olmaqla bölgə planlarında müəyyən olunan hədəflərə uyğun olaraq özlərinin yerli inkişaf proqramlarını hazırlayır və həyata keçirirlər. Yerli özünüidarə regional inkişaf layihələrinin maliyələşdirilməsinə öz büdcə vəsaitləri ilə yanaşı məqsədli və məqsədsiz transfertlər formasında mərkəzi hökumətin büdcəsindən, Bələdiyyə Bankının (İller Bankası) aşağı faizli kredit fondundan da zəruri həcmdə vəsait cəlb edə bilir.

Gürcüstanda da oxşar model tətbiq edilir. Ümumi iqtisadi inkişaf məsələləri ilə İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi məşğul olur[20]. Regional inkişaf məsələlərinə isə bilavasitə Regonal İnkişaf və İnfrastruktur Nazirliyi səlahiyyətlidir[21]. Bundan əlavə, ölkədə bölgə inkişafının maliyyə təminatına nail olmaq üçün Bələdiyyə İnkişafı Fondu fəaliyyət göstərir[22].

Gürcüstanda da səmərəli və regional inkişaf sahəsində geniş, müstəsna səlahiyyətlərə malik yerli özünüidarə sistemi fəaliyyət göstərir. 2014-cü ildə qəbul edilmiş yerli özünüidarə Məcəlləsinə əsasən ölkədə 9 regional hakimiyyət, 64 bələdiyyə və 12 mixtar özünüidarə statusuna malik şəhər yaradılıb[23].

Azərbaycanda isə "Azərbaycan 2020: Gələcəyə baxış" Konsepsiyasında nəzərdə tutulmasına baxmayaraq son 4 ildə bələdiyyələrin bölgə inkişafında rolunun artırılması, bu qurumların qərar qəbuletmədə rolunun artırılması istiqamətində hər

---

[20] http://www.economy.ge/en/home
[21] http://www.mrdi.gov.ge/en/main
[22] http://mdf.org.ge/?site-path=homepage/&site-lang=en
[23] https://matsne.gov.ge/en/document/download/2244429/15/en/pdf

hansı hüquqi addım atılmayıb. Amma problem yalnız yerli özünüidarənin səlahiyyət məhdudluğu ilə bağlı deyil. Bələdiyyələrin maliyyə potensialı da çox məhduddur. Hazırda Azərbaycanda bələdiyyələrin (yerli büdcələrin) məcmu gəlirlərinin mərkəzi büdcə gəlirlərinə nisbəti 0.3%-dən azdır. Halbuki məsələn, Gürcüstanda bu göstərici 17% təşkil edir[24]. Azərbaycanda hazırda yerli büdcələrin ölkə üzrə gəlirlərinin adambaşına gəlirləri 3 dollar, Gürcüstanda isə 165 dollar təşkil edir.

Türkiyədə yerli büdcələrin təkcə mərkəzi büdcədən aldığı pay ümumi büdcənin 10%-ni təşkol edir. Yerli büdcə gəlirlərinin məcmu gəlirləri məcmu hökumət gəlirlərinin 15% ətrafındadır[25]. Türkiyədə hazırda yerli özünüidarə qurumlarının gəlirlərinin əhalinin adambaşına düşən həcmi 350 dollara yaxındır.

İnkişaf etmiş ölkələrdə yerli özünüidarənin büdcə gəlirlərinin mərkəzi büdcədə payı daha yüksəkdir. Məsələn, Mərkəz və Şərqi Avropada bu göstərici 30-50%, Skandinaviya ölkələri və Yaponiyada 60-65% intervalında dəyişir[26].

***(v) Regionların inkişafına ilə bağlı differensial təşviq mexanizmlərindən və siyasət alətlərindən istifadə***

Bu mexaniz Avropa Birliyinin xüsusi önəm verdiyi yanaşmadır. Bu yanaşmaya görə, regional məhsulun adambaşına həcmi ölkə üzrə ÜDM-nin adambaşına həcminin 75%-dən az olan bölgələr depressiv (geridə qalmış və ya problemli) bölgələr hesab edilir və onlara münasibətdə differensial investisiya, vergi və büdcə dəstəyi siyasəti işlənib hazırlanır[27]. Azərbaycanda ümumiyyətlə iqtisadi baxımdan zəif inkişaf etmiş yaxud problemli bölgə, belə bölgələrin müəyyən edilməsi üçün meyarlar, prinsiplər mövcud deyil. Eyni zamanda, coğrafi baxımdan əlverişsiz və üstün inkişaf etdirilməli olan bölgələrə də münasibətdə anoloji siyasət yanaşması mövcud deyil.

Gürcüstanda "Dağlıq ərazilərin inkişafı haqda" Qanun var. Həmin qanun məşğul əhalinin maaşlarına, pensiya və sosil müavinətlərə, hökumətin ayırdığı sərmayələrə yüksəldici əmsalların tətbiqini, əhalinin həmin ərazidə məskunlaşmaya marağının artırılması üçn daha keyfiyyətli infrastrukturun yaradılmasının əsas prioritet seçilməsini nəzərdə tutur[28].

Türkiyədə isə milli bölgə inkişafı strategiyasında regionlar həm inzibati statusuna, həm də iqtisadi üstünlüklərinə görə təsnifləşdirilir. Bu sinifləndirməyə əsasən yüksək əhali sayına və sıxlığına, sənaye və ximət sektorunun üstün paya malik olduğu metropol ərazilər, metrolpol şəhərlərin yaxın ətrafında yerləşən və "metropol alt-mərkəzlər" adlandırılan ərazilər, sənaye bölgələri hesab edilən və sənayecə böyümək peotensialı olan ərazilər, daha çox bölgənin administrativ funksiyasını yerinə yetirən və "iqtisadi

---

[24] http://www.coe.int/t/dgap/localdemocracy/News/2015/LFB-Chisinau/Options-assessing-local-finances_en.pdf
[25] http://dergi.sayistay.gov.tr/icerik/der94m2.pdf
[26] http://www.akademikbakis.org/eskisite/34/21.pdf
[27] О.Р. Хасбулатов. «Развитие страны: Центры и Периферии. Опыт региональный экономической политики». Москва 2009.
[28] http://static.mrdi.gov.ge/54cb43910cf22286480d0f03.pdf

cazibə mərkəzləri" adlandırılan ərazilər, nəhayət kənd əraziləri daxildir. Proqramların hazırlanması və prioritetlərin müəyyən edilməsi məhz bu təsnifata əsaslanır.